RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 280 (8303) ÇƏRŞƏNBƏ AXŞAMI, 17 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Azərbaycanın tarixində daha bir ilk

**İLHAM ƏLİYEV:**
"İndi bizə lazım olan bütün gəmilər Azərbaycanda istehsal edilə bilər. Tarixdə ilk dəfə həm tanker, həm də ki, gəmi-bərə tikilib".

**Dünya ticarət məhsullarının 80 faizdən artıq hissəsinin təhlükəsiz, maddi cəhətdən sərfəli və ətraf mühitə daha az mənfi təsir göstərməklə daşınması dəniz nəqliyyatı vasitəsilə həyata keçirilir. Əlverişli coğrafi mövqeyə sahib olan Azərbaycan da etibarlı nəqliyyat dəhlizinin yaradılması istiqamətində mühüm işlər görüb. Dəniz nəqliyyatına böyük investisiyalar yatırmaqla infrastrukturunu möhkəmləndirən ölkəmiz regionda əlverişli logistik bağlantı yaradaraq Avrasiya məkanının mühüm nəqliyyat-tranzit qovşaqlarından birinə çevirib. Prezident İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri ilə dəniz nəqliyyatını davamlı olaraq modernləşdirən Azərbaycan bu gün müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı təminat verir.**

### Xəzərdə ən böyük donanmaya malik ölkə

Azərbaycanın əhəmiyyətli nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilməsini təsdiqləyən infrastruktur layihələrinə, mövcud potensialına nəzər yetirsək görərik ki, ən yeni texnoloji standartlar səviyyəsində inşa edilən gəmiqayırma zavodu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Xəzər Dəniz Gəmiçiliyinin donanmasında gəmilərin sayının getdikcə artması bu istiqamətdə məqsədyönlü strateji planın uğurla reallaşdırılmasının bariz nümunələridir.

Son illərdə isə xüsusən gəmiçiliyin inkişafında yeni-yeni nailiyyətlər qazanılır. Elə ötən həftə, dekabrın 13-də Azərbaycanın ilk neft tankeri olan "Laçın"ın və Xəzər Dəniz Gəmiçiliyi QSC-nin sifarişi ilə Bakı Gəmiqayırma Zavodunda inşa olunan ilk sərnişin, avtomobil və dəmir yolu vaqonları daşıyan "Ro-Pax" tipli "Azərbaycan" adlı gəmi-bərənin suya salınması da deyilənləri bir daha təsdiqləyir.

Həm tankerin, həm də gəmi-bərənin suya salınması mərasimində iştirak edən cənab İlham Əliyev bu hadisəni tarixi gün adlandıraraq böyük uğur kimi qiymətləndirdi: "Bu, bir daha göstərir ki, nə qədər düzgün qərar qəbul etmişik. Gəmiqayırma zavodunun tikintisi doğrudan da böyük hadisədir. İndi bizə lazım olan bütün gəmilər Azərbaycanda istehsal edilə bilər. Tarixdə ilk dəfə həm tanker, həm də ki, gəmi-bərə tikilib".

200-dən çox gəmi ilə Xəzərdə ən böyük donanmaya malik olan Azərbaycan həm gəmilərinin sayını artırır, həm də rahat və təhlükəsiz daşımalar həyata keçirir.

### Bakı Gəmiqayırma Zavodunun növbəti uğuru

Öncə özünəməxsusluğu ilə seçilən ilk neft tankerimiz olan "Laçın"ın hazırlanması, gücü və imkanları ilə tanış olaq.

Uzunluğu 141, eni 16,9 metr, ağırlığı 7875 ton olan tanker Odessa Dəniz Mühəndisliyi Bürosunun layihəsi əsasında yerli mütəxəssislər tərəfindən inşa edilib. Özü də Azərbaycanda sıfırdan inşa olunub.

Tanker Volqa-Don "MAX" layihəsidir. Volqa-Don çayından keçmək imkanı olan və maksimum yükgötürmə qabiliyyətinə malikdir. Başqalarından fərqli olaraq, 4-5 min tondan artıq yüklə ölçülərinə görə bu kanaldan keçmək imkanına malikdir.

Düzdür, Volqa-Dondan adətən daha kiçik gəmilər keçir. Ancaq "Laçın" yükünü bir qədər azaldıb maksimum (5600) ton yüklə oradan keçə bilir.

Beləliklə, "Laçın" tankeri nəinki Xəzərdə neft və neft məhsullarının daşınmasını, həmçinin Volqa-Don və Volqa-Baltik kanalları ilə Xəzərdən kənar hövzələrə də maye yüklərin daşınmasını təmin edəcək.

Cənab İlham Əliyev yeni nəsil tankerin inşasını Azərbaycanın iqtisadi və sənaye potensialının gücləndirilməsində mühüm rol oynayan Bakı Gəmiqayırma Zavodunun növbəti uğuru kimi qiymətləndirərək qeyd etdi ki, hazırda zavodda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin donanması üçün zəruri olan müxtəlif təyinatlı gəmilərin inşası ilə bağlı danışıqlar aparılır. Onların arasında quru yük, konteyner daşıyan, kran, yanğınsöndürən, yedək-təchizat, təchizat və nəqliyyat gəmiləri var.

Ümumiyyətlə, hazırda Azərbaycanda 20 tanker var və Prezidentin dəstəyi ilə hazırda dördü sifariş olunub və inşa edilir. Yəni cənab İlham Əliyevin təşəbbüsü ilə tikilən gəmiqayırma zavodu artıq sifarişlər qəbul edir, ölkəmizdə tankerlər, bərələr inşa olunur.

*Ardı 8-ci səh.*

# Azərbaycan özünü elektrik enerjisi ilə tam təmin edir

## Prezident İlham Əliyev "Azərenerji" ASC-nin prezidentini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) prezidenti Baba Rzayevi qəbul edib.

AZƏRTAC xəbər verir ki, ölkəmizdə elektrik enerjisinin istehsalının, istehsal güclərinin artdığını bildirən **Prezident İlham ƏLİYEV** dedi:

- Son illərdə bir çox yeni elektrik stansiyaları tikilmişdir. Hazırda Azərbaycan özünü elektrik enerjisi ilə tam təmin edir və eyni zamanda bizdə ixrac imkanları yaradılmışdır. Bu il biz önəmli addımların atılması nəticəsində yeni istehsal güclərini işə saldıq. İlk növbədə, "Şimal-2" Elektrik Stansiyasının fəaliyyətə başlaması önəmli hadisədir. Sentyabr ayında mənim iştirakımla stansiyanın açılışı olmuşdur. Gücü 400 meqavat olan stansiya bizim enerji potensialımızı böyük dərəcədə artırır. Şərti yanacağın sərfiyatı da çox aşağı səviyyədədir. Ona görə bu stansiya bütün standartlara cavab verir. Artıq bir neçə ay keçibdir, stansiyanın fəaliyyəti ilə bağlı nə deyə bilərsiniz?

**Baba RZAYEV:**

- Cənab Prezident, qeyd etdiyiniz kimi, Sizin birbaşa tapşırığınız əsasında biz bu stansiyanı işə salmaq üçün böyük bir qrup yaratdıq. Biz analizlər apardıq və bu il sentyabrın 5-də Sizin iştirakınızla 400 meqavatlıq bu istilik elektrik stansiyasını işə saldıq. Qeyd etdiyiniz kimi, bu, Cənubi Qafqazda yük rejimindən asılı olaraq 214-216 qram xüsusi şərti yanacaq işlədən yeganə yarımstansiyadır. Yəni çox qənaətcildir və onun faydalı iş əmsalı 57,4 faizdir. İl ərzində 3,2 milyard kilovat-saat enerji istehsal edir.

**Prezident İlham ƏLİYEV:**

- Hazırda stansiya hansı səviyyədə işləyir, tam gücü nə qədərdir?

**Baba RZAYEV:**

- Tam gücü ilə işləyir. Biz rejimdən asılı olaraq 380 meqavat yükləyirik, hazırda 380 meqavatla işləyir.

**Prezident İlham ƏLİYEV:**

- Çox yaxşı. Bu, bizim enerji potensialımızı böyük dərəcədə gücləndirir və artan tələbatı da təmin edəcəkdir. Eyni zamanda ilin əvvəlində sizə göstəriş vermişdim ki, "Azərbaycan" İstilik Elektrik Stansiyasının təmir-bərpa işləri təmin edilsin, 8 blokdan 5-də yenidənqurma işləri aparılmalı və tamamlanmalı idi. Bu sahədə vəziyyət necədir?

**Baba RZAYEV:**

- Cənab Prezident, beş blokda yenidənqurma işləri artıq başa çatıb. Bundan başqa, məruzə etdiyim kimi, 500 kilovoltluq açıq paylayıcı qurğu tamamilə yenidən qurulub, 330 kilovoltluq paylayıcı qurğuda isə işlərin 80 faizdən çoxu icra olunub. Bu, qəzaların qarşısını tamamilə almağa kömək edəcək.

Cənab Prezident, mən Sizə məruzə etmək istəyirəm ki, Ulu Öndər bu stansiyanın təməlini qoydu. Çox çətinliklə də olsa, sovetlər birliyindən bu layihəni alıb Azərbaycanda yerləşdirməyə nail oldu. Siz də bu stansiyaya ikinci həyat verdiniz. Bu, Mingəçevir camaatında həqiqətən çox böyük ruh yüksəkliyi yaradıb. "Azərbaycan" İstilik Elektrik Stansiyasında və Mingəçevir Su Elektrik Stansiyasında 1600 nəfərdən çox adam işləyir. Onlar ümidlərini itirmişdilər ki, yəqin, bunun dövrü artıq bitib, bundan sonra 3 il, 5 il iş yeri olmayacaq. Bugünkü vəziyyəti görürlər və bilirlər ki, həqiqətən orada hələ 20-30 il də işləmək mümkün olacaq.

*Ardı 2-ci səh.*

# Azərbaycan dünyanın ən güclü ölkələri sırasındadır

## "U. S. News & World Report" jurnalı ölkələrin reytinq siyahısını açıqlayıb

ABŞ-ın "U. S. News & World Report" jurnalı 2019-cu ildə dünyanın ən güclü ölkələrinin reytinq siyahısını açıqlayıb.



AZƏRTAC xəbər verir ki, reytinq ABŞ-ın ən nüfuzlu siyasi nəşrlərinin birinin saytında dərc edilib. Siyahı Pensilvaniya Universitetinin "BAV Group and Wharton School" qrupunun analitikləri tərəfindən tərtib edilib. Siyahı tərtib edilən zaman ölkələrin iqtisadi vəziyyəti, hərbi gücü, siyasi təsir dairəsi, dünyada liderliyi, habelə beynəlxalq təşkilatlara üzvlük və iştirakı daxil olmaqla bir sıra amillər nəzərə alınıb.

Siyahıda Azərbaycan 45-ci yerdə qərarlaşıb. Ölkəmiz cari ildə əldə etdiyi uğurlara görə bir neçə Avropa ölkəsini - Xorvatiya, Çexiya, Latviya, Rumıniya, Slovakiya, Sloveniya, Estoniya və Portuqaliyanı geridə qoyub.

# Şəffaflıq təmin edilib

Mərkəzi Seçki Komissiyasının 18 oktyabr 2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş təqvim planında nəzərdə tutulmuş tədbirlər Neftçala rayonunda da həyata keçirilmişdir. Rayon üzrə 15 bələdiyyəyə 143 nəfər üzv seçiləcəkdir.



Həmin yerlərə ümumilikdə 486 nəfərin namizədliyi qeydə alınmışdır. Onlar YAP, ASRP, AVP, BQP, MDHP tərəfindən, habelə öz şəxsi təşəbbüsləri ilə irəli sürülmüş namizədlərdir.

Hər bir namizədin qeydə alınması, öz təşviqat kampaniyasını aparması üçün lazımi şərait yaradılmışdır. Bu məqsədlə namizədlərin hamısı üçün qapalı və açıq yerlər ayrılmışdır.

*Ardı 8-ci səh.*

# "Equinor" Azərbaycandakı işini yeni layihələrlə davam etdirir

**Xəzərin Azərbaycan sektorundakı "Qarabağ" yatağında üzən qazma qurğusu ilə qiymətləndirici quyunun qazılması üçün hazırlıq işləri aparılır. Quyunun qazılandan sonra yataqda stasionar özülün quraşdırılması və hasilatın başlanması planlaşdırılır.**

Özülün dayaq blokunun inşaat işləri Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun ərazisində "BOS ŞELF" şirkəti tərəfindən başa çatdırılmaq üzrədir. Bundan sonra platformanın üst hissəsinin tikintisi həyata keçiriləcək.

SOCAR və "Equinor" şirkətləri rəhbərlərinin bu yaxınlarda keçirilən görüşündə də "Qarabağ" yatağı ilə bağlı məsələlər geniş müzakirə olunub. Layihənin daha sürətlə icra olunmasının zərurəti vurğulanıb, bu istiqamətdə atılacaq növbəti addımlar müəyyənləşdirilib.

"Qarabağ" üzrə ilkin razılaşma sözügedən iki şirkət arasında 2017-ci ilin dekabrında əldə olunub. Yatağın işlənməsi ilə əlaqədar Risk Xidməti Sazişi isə 2018-ci ilin mayında imzalanıb. Həmin ilin sentyabrında, neftçilərin peşə bayramı ərəfəsində SOCAR-ın səlahiyyətli nümayəndəsi bildirib ki, strukturda ətraflı dəyərləndirmədən sonra qiymətləndirici quyu "Dədə Qorqud" üzən qazma qurğusu ilə qazılacaq. Yataqdan ilk hasilatın 2021-ci ildə əldə olunacağı gözlənilir. Layihənin həyata keçirilməsi üçün SOCAR-la "Equinor"un hərəsinin 50 faiz iştirak payı olmaqla birgə əməliyyat şirkətinin yaradılacağı da bildirilib.

"Qarabağ" perspektivli struktur kimi 1959-cu ildə seysmik kəşfiyyat işləri nəticəsində aşkar edilib. 1984-cü ildə dəqiqləşdirilib və 1997-1998-ci illərdə kəşfiyyat qazması nəticəsində strukturun neft-qazlılığı təsdiqlənib.

*Ardı 8-ci səh.*

AZƏRBAYCAN www.azerbaijan-news.az

# Azərbaycan özünü elektrik enerjisi ilə tam təmin edir

## Prezident İlham Əliyev "Azərenerji" ASC-nin prezidentini qəbul edib

*Əvvəli 1-ci səh.*



**Prezident İlham ƏLİYEV:** Elədir. Amma əfsuslar olsun ki, əvvəlki dövrlərdə stansiya öz potensialını böyük dərəcədə itirmişdi. Ona görə mən "Azərenerji"nin yeni rəhbərliyi qarşısında vəzifə qoymuşdum ki, itirilmiş güclər bərpa edilsin. O vaxt belə hesablanmışdı ki, ən azı 300 meqavat elektrik enerjisi potensialı bərpa edilməlidir. Bu istiqamətdə hansı addımlar atılıb və gələn il hansı işlər gözlənilir?

**Baba RZAYEV:** Cənab Prezident, artıq 200 meqavatı bərpa olunub və biz 300 meqavat yox, 400 meqavat gözləyirik, bir az da ondan çox. Biz 400 meqavatı yay rejimində gözləyirik. Qış rejimində isə təqribən 500-550 meqavat artırılmasını gözləyirik.

**Prezident İlham ƏLİYEV:** Yəni, qalan 3 blok da təmir olunacaq?

**Baba RZAYEV:** Bəli, tamamilə. Əsas məsələ odur ki, biz onun həm soyutma sistemini, həm də bütün kimyəvi reagentlər olan sahəsini tamamilə yenidən qurmuşuq. Orada blokların özünü, generator, turbin və qazanları tamamilə yenidən qururuq. Amma köməkçi qurğu və binaların hamısını, demək olar ki, sıfırdan tikməyə başlamışıq.

**Prezident İlham ƏLİYEV:** Çox vacibdir, bu, bizim strateji obyektimizdir. Keçən ilin yayında baş vermiş qəza əlbəttə ki, bizə çox baha başa gəldi. Bundan həm bizim vətəndaşlar əziyyət çəkdilər, metroda qalanlar oldu, həm də sənaye müəssisələri ziyan çəkdi. Ona görə qəzanın səbəblərinin araşdırılması üçün komissiya yaradıldı və səhlənkarlığa, pozuntulara yol verən bütün vəzifəli şəxslər işdən kənarlaşdırıldı. Ona görə məhz bizim strateji obyektimiz olan Mingəçevir Elektrik Stansiyasının bərpası və qəzadan özümüzü sığortalamaq məsələləri "Azərenerji"nin yeni rəhbərliyi qarşısında əsas vəzifə kimi dayanmışdır. Eyni zamanda, 400 meqavat gücündə olan "Şimal-2" stansiyasının məhz Bakıda inşa edilməsi bizim enerji generasiya güclərimizin ölkə ərazisində daha bərabər şəkildə paylanmasına xidmət göstərir.

Qəzadan sonra mən göstəriş vermişdim ki, bununla paralel olaraq, bizim bütün metro stansiyalarında generatorlar quraşdırılsın. Generatorların əsas işi ondan ibarətdir ki, əgər qəza baş verərsə, qatarlar perrona qədər hərəkət edə bilsinlər və eskalatorlar da işləsinlər. Generatorların quraşdırılması nə yerdədir? Bu iş başa çatıb, yoxsa yox?

**Baba RZAYEV:** Cənab Prezident, məruzə edim ki, bu iş artıq 100 faiz başa çatıb. Artıq mərkəzi idarəetmə pultu Bakı Metropoliteninin baş ofisindədir və orada təhvil-təslim işləri başa çatıb. Bizim 10 yarımstansiyada gücü 2500, 2000 və 1000 kilovolt olan 17 generator quraşdırılıb və 39 meqavat yeni güc mənbəyi yaradılıb və ehtiyata verilib. İşlər çox yüksək səviyyədə tam başa çatıb.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Bir məsələ də daim diqqət mərkəzində olmalıdır. Bu da bərpaolunan enerji növlərinin yaradılmasıdır. Şadam ki, bu sahəyə xarici investorlar da böyük maraq göstərirlər. Hazırda Azərbaycan Energetika Nazirliyi bu işlərlə məşğul olur, tender elan olunubdur və bu sahədə böyük təcrübəsi olan şirkətlər tenderdə iştirak edirlər. Yəni, sevindirici hal ondan ibarətdir ki, Azərbaycana investisiya qoymaq istəyən şirkətlər öz aralarında rəqabət aparırlar. Vaxtilə biz investorları inandırmağa çalışırdıq ki, gəlib vəsait qoysunlar. Ancaq indi investorlar özləri maraq göstərirlər. Biz tenderin qalibini açıq və şəffaf tender şərtlərinə uyğun müəyyən etməliyik. Bu, çox sevindirici haldır. Çünki söhbət təqribən 400-500 meqavat gücündə bərpaolunan elektrik stansiyalarının inşasından gedir. Eyni zamanda, keçən il biz Azərbaycanda dövlət xəttilə yaradılmış külək elektrik stansiyasının açılışını mənim iştirakımla qeyd etdik. Stansiyanın gücü 50 meqavatdır və bu stansiya indi necə işləyir? Əlavə stansiyanın tikintisi nəzərdə tutulur, yoxsa yox?

**Baba RZAYEV:** Cənab Prezident, qeyd etdiyiniz kimi, 50 meqavat gücündə Yaşma Külək Elektrik Stansiyası tam gücü ilə işləyir. Biz 2018-ci ildə 60 milyon kilovat-saat, 2019-cu ildə isə 80 milyon kilovat-saat enerji istehsalına nail olmuşuq. Artıq bugünə olan məlumatlar bizdə var. Bu da təxminən 13-14 milyon kubmetr qazın qənaəti deməkdir, buna böyük ehtiyac var. Sizin tapşırığınızla Bakı-Quba magistralının sağ tərəfində - təzə yolla köhnə yolun arasında 84 meqavat gücündə Şurabad Külək Elektrik Stansiyasının artıq bütün layihə-smeta sənədləri hazırlanmış, torpaqların alınması, ötürmə xətləri məsələləri həll edilib və "Vestas" şirkəti bu işə cəlb olunub.

**Prezident İlham ƏLİYEV:** Yəni, gələn il işlərə başlaya bilərik?

**Baba RZAYEV:** Bəli, gələn il işlərə başlaya biləcəyik.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı, buna ehtiyac var. Çünki bizim indi generasiya gücümüz daxili tələbatdan daha böyük həcmdə istehsal olunur. Bu da təbiidir. Çünki həmişə bizdə ehtiyat olmalıdır və eyni zamanda, yaradılmış şərait imkan verir ki, biz elektrik enerjisini ixrac edək və bu gün bu sahə ölkəmizə valyuta gətirir. İxrac da olmalıdır, daxili tələbat da təmin edilməlidir. Ancaq biz hamımız onu da bilməliyik ki, daxili tələbat artır və artacaq. İlk növbədə, artan əhali təbii ki, yeni güclərin işə salınmasını diktə edir, digər tərəfdən, ölkəmizə gələn xarici qonaqlar, onların sayı artıq bu il 3 milyonu keçibdir və təbii ki, bu xidmət sektorunda mövcud olan enerji potensialı daha da artmalıdır və əlbəttə ki, əsas məsələ artan sənayedir. Bu il qeyri-neft sektorumuzda sənaye istehsalı 14 faiz artıbdır və bizim sənayeləşmə ilə bağlı olan digər layihələr bu gün reallaşır. Sənaye parkları, sənaye zonaları, yeni sənaye müəssisələri yaradılır ki, bütün bunlar enerji tələb edir. Ona görə biz öz strateji addımlarımızı elə atmalıyıq ki, daim Azərbaycanın tələbatı, o cümlədən sənaye istehsalı ilə bağlı olan tələbat enerji generasiya gücləri ilə, yarımstansiyalarla, ötürücü xətlərlə təmin edilsin ki, heç bir problem olmasın. Necə ki, bu gün heç bir problem yoxdur. Ona görə əminəm ki, gələn il də "Azərenerji" və onun bütün kollektivi öz vəzifə borcunu ləyaqətlə yerinə yetirəcək və Azərbaycanda enerji dayanıqlılığı daim təmin ediləcəkdir.

# Xırdalan şəhərində avtomobil yollarının əsaslı təmiri ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Xırdalan şəhərində ümumi uzunluğu 5,4 kilometr olan Nizami, Hacı Zeynalabdin Tağıyev, Səttar Bəhlulzadə və Qalubiyyə küçələrinin əsaslı təmiri məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2019-cu il*

# Nazirlər Kabinetində Dövlət Neft Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib



Dekabrın 16-da Azərbaycan Respublikasının Nazirlər Kabinetində Dövlət Neft Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Prezidentinin Dövlət Neft Fondu Müşahidə Şurasının yeni tərkibi haqqında Sərəncamından irəli gələn tapşırıqların yerinə yetirilməsi ilə bağlı məsələlər müzakirə edilib. Baş Nazir Əli Əsədov Müşahidə Şurasına sədr seçilib. Dövlət Neft Fondunun 2020-ci il üçün büdcə layihəsi və digər məsələlər müzakirə olunub.

# Təhsil Nazirliyində BDU-nun əməkdaşlarına dövlət təltifləri təqdim edilib

Dekabrın 16-da Təhsil Nazirliyində Prezident İlham Əliyevin sərəncamlarına əsasən Bakı Dövlət Universitetinin (BDU) 100 illik yubileyi münasibətilə bu təhsil müəssisəsinin təltif olunan əməkdaşlarına dövlət təltiflərinin təqdimetmə mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə çıxış edən Təhsil naziri Ceyhun Bayramov Ümummilli Lider Heydər Əliyevin təhsilə daim xüsusi önəm verdiyini, Ulu Öndərin ideyalarının Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini bildirib.

Müasir dünyada təhsilin mühüm rolunu qeyd edən nazir dövlət başçısının bu sahə ilə bağlı imzaladığı sənədlərin əhəmiyyətini diqqətə çatdırıb.

C.Bayramov ölkəmizdə təhsilin inkişafı istiqamətində reallaşdırılan tədbirlərdən danışıb.

Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən 1919-cu ildə təsis edilən Bakı Dövlət Universitetinin şərəfli inkişaf yolundan bəhs edən nazir bu ali məktəbin elm və təhsilimizin inkişafında, yeni elm və təhsil müəssisələri şəbəkəsinin formalaşmasında əvəzsiz rolunu vurğulayıb. O, Prezident İlham Əliyev tərəfindən "Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi haqqında" 2017-ci ildə imzalanmış sərəncamı xatırladıb. Nazir universitetin 100 illiyinin respublikamızda, Fransanın paytaxtı Parisdə UNESKO-nun baş qərargahında və digər ölkələrdə qeyd olunduğunu deyib.

BDU əməkdaşlarını təbrik edən C.Bayramov onlara uğurlar arzulayıb.

Sonra universitetin əməkdaşlarına 100 illik münasibətilə və Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə fəxri adlar, orden və medallar təqdim olunub.

# AZAL Pilotların Hazırlığı Mərkəzinin imkanlarını genişləndirəcək







"Azərbaycan Hava Yolları" QSC (AZAL) "FlightSafety International" şirkətindən "Embraer E-190" tipli təyyarə üçün son nəsil aviasiya trenajoru əldə edir. Trenajor Azərbaycan Hava Yolları yanında Milli Aviasiya Akademiyasının Pilotların Hazırlığı Mərkəzində quraşdırılacaq.

AZƏRTAC xəbər verir ki, müvafiq sazişi dekabrın 16-da Bakıda Azərbaycan tərəfdən AZAL-ın prezidenti Cahangir Əsgərov və Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev, "FlightSafety International" tərəfdən isə aviasiya trenajorları xidmətləri üzrə icraçı direktor Con Van Maren və satış üzrə direktor Filip Delfur imzalayıblar. Müqavilənin ümumi dəyəri 11,5 milyon ABŞ dolları təşkil edir.

"FS1000 Embraer E190-E1 Level D Full Flight Simulator" yeni trenajor kompleksi "Buta Airways" aviaşirkətinin pilotlarının tam təlim və sertifikatlaşdırılması üçün imkan yaradacaq. Sözügedən trenajorun alınması ilə bağlı ilkin razılıq bu ilin noyabrında "Dubai Air Show - 2019" sərgisi çərçivəsində əldə olunub.

"Milli Aviasiya Akademiyası Azərbaycanın mülki aviasiyası üçün kadrların hazırlandığı yerdir. Buna görə biz onun maddi-texniki bazasının genişləndirilməsi üzərində daim çalışırıq. Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev ilə birlikdə akademiyanın ərazisində trenajor kompleksi üçün nəzərdə tutulmuş və inşası sona çatmaqda olan binanın tikilməsi barədə qərar qəbul etmişdik. "Embraer E-190" və "Boeing 787 Dreamliner" tipli təyyarələr üçün aviasiya trenajorları yerləşdiriləcək. Bugünkü sazişin imzalanması aviasiya sahəsində kadr hazırlığı və peşəkarlıq səviyyəsinin artırılması üçün səylə çalışdığımızın daha bir təsdiqidir", - deyə AZAL-ın prezidenti C.Əsgərov bildirib.

Qeyd edək ki, sözügedən trenajorda Azərbaycanın aviaşirkətlərinin pilotları ilə yanaşı, xarici aviaşirkətlərin də pilotları təlim keçəcək.

AZAL Pilotların Hazırlığı Mərkəzi 2010-cu ildən fəaliyyət göstərir. Mərkəz nəzəri və praktiki hazırlıq şöbələrindən ibarətdir. Nəzəri tədris şöbəsi hər il 7000-dən çox mülki aviasiya mütəxəssisinin 300-dən çox kvalifikasiyanın artırılması kurslarında iştirakını təmin edir. Təcrübə təlim şöbəsində peşəkar pilot bacarıqlarının əldə edilməsi və dəstəklənməsi üçün çox əhəmiyyətli olan dörd uçuş aviasiya trenajoru fəaliyyət göstərir - "Airbus A319 / 320", "Boeing 757/767", "ATR-42/72", həmçinin "Mi-8AMT" vertolyotu.

"FlightSafety" AZAL-ın bu qabaqcıl aviasiya trenajorunun təchizatçısı kimi bizi seçdiyindən çox qürur duyur. Sözügedən trenajor ən yüksək standart olan "D" səviyyəsinə uyğundur. Bu, AZAL-ın təhlükəsizliyə sadiqliyini və pilotlarına ən yüksək keyfiyyətli və effektiv təlim verməsinin əyani təsdiqidir. Aviaşirkət ilə münasibətlərimizin genişlənməsinə və Azərbaycanda olmağımıza ümid edirik", - deyə "FlightSafety International"ın icraçı direktoru C.V.Maren qeyd edib.

# Fövqəladə Hallar Nazirliyinin yaradılmasının 14-cü ildönümü münasibətilə təntənəli tədbir keçirilib

Dekabrın 16-da Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin (FHN) yaradılmasının 14-cü ildönümü və nazirlik işçilərinin peşə bayramı münasibətilə təntənəli tədbir keçirilib.



FHN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Fövqəladə Hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə nazirliyin kollektivi Fəxri xiyabana gələrək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üstünə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanı ziyarət edilib, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş vətən övladlarının xatirəsi ehtiramla anılıb, məzarları üzərinə gül dəstələri qoyulub.

Daha sonra Fövqəladə Hallar Nazirliyinin inzibati binasında təntənəli tədbir keçirilib.

Azərbaycan Respublikası Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə çıxış edən nazir Kəmaləddin Heydərov Fövqəladə Hallar Nazirliyinin yaradılmasının 14-cü ildönümü və peşə bayramı münasibətilə şəxsi heyəti təbrik edərək uğurlar arzulayıb.

Nazir Kəmaləddin Heydərov 2019-cu ilin ötən dövründə Fövqəladə Hallar Nazirliyinin fəaliyyətindən və görülmüş işlərdən danışıb. Vurğulayıb ki, Fövqəladə Hallar Nazirliyi ölkə əhalisinin və ərazilərinin təhlükəsizliyinin təmin olunması istiqamətində uğurlu fəaliyyətini cari ildə də davam etdirib. Hesabat dövründə nazirliyin maddi-texniki bazasının möhkəmləndirilməsi, əməkdaşların peşəkarlığının artırılması və kadr potensialının gücləndirilməsi istiqamətində əməli tədbirlər görülüb. Fövqəladə halların qarşısının vaxtında alınması və nəticələrinin çevik aradan qaldırılması, yanğından mühafizə işlərinin daha peşəkarlıqla həyata keçirilməsi, hadisələrə operativ və effektiv reaksiya verilməsi təmin edilib.

Nazir əmlakların fövqəladə hallara qarşı sığortalanması məsələsinə də toxunaraq qeyd edib ki, müxtəlif fəlakətlər, o cümlədən yanğın, zəlzələ, sel və s. nəticəsində dəymiş ziyanın əvəzinin dövlət tərəfindən ödənilməsi yalnız Azərbaycanda baş tutan və digər ölkələrdə analoqu olmayan reallıqdır. Bu isə dövlət başçısı İlham Əliyevin yürütdüyü humanist siyasətin daha bir təzahürüdür. O, həmçinin vətəndaşlara, eləcə də sahibkarlara dəyən ziyanın əvəzinin ödənilməsi ilə bağlı Heydər Əliyev Fondunun böyük işlər gördüyünü də diqqətə çatdırıb. Bununla belə, nazir vətəndaşlara, xüsusilə sahibkarlara müraciət edərək sahib olduqları əmlaklarını təbii və texnogen xarakterli fövqəladə hallara qarşı sığortalamağı tövsiyə edib. Bu işdə FHN-in aidiyyəti qurumlarına qanunauyğun zəruri tədbirlər görməyi tapşıran nazir vətəndaşların bu sahədə maarifləndirilməsinin və onlara mümkün dəstəyin göstərilməsinin əhəmiyyətini bildirib. Bundan başqa, nazir kütləvi informasiya vasitələrinə müraciət edərək onları nazirliyin fəaliyyəti, xüsusilə son zamanlar baş verən yanğınlar və onların söndürülməsi ilə bağlı qeyri-obyektiv, yoxlanılmamış, müxtəlif neqativ məqsədlərə xidmət edən, dedi-qodu xarakterli məlumatları deyil, nazirliyin rəsmi mövqeyini işıqlandırmağa və bununla da hadisələr zamanı həyatlarını riskə ataraq fədakarlıq nümunəsi göstərən yanğınsöndürən və xilasedicilərin əməyini heçə endirməməyə və fəlakətlər zamanı əhali arasında mümkün təşvişin qarşısını almaqda yardımçı olmağa çağırıb.

Çıxışında əldə olunan bütün nailiyyətlərin müasir müstəqil Azərbaycan dövlətinin banisi, bütün dövrlərin ən böyük azərbaycanlısı Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi mütərəqqi siyasi xətti uğurla davam və inkişaf etdirən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısının nəticəsi olduğunu xatırladan nazir Kəmaləddin Heydərov Fövqəladə Hallar Nazirliyinə göstərdiyi bu münasibətə görə nazirliyin şəxsi heyəti adından dövlət başçısına dərin təşəkkürünü bildirib. Vurğulayıb ki, ölkə rəhbərliyinin ali etimadını doğrultmaq və əhalinin, ərazilərin etibarlı mühafizəsini təmin etmək üçün Fövqəladə Hallar Nazirliyi bundan sonra da əzmlə fəaliyyət göstərəcək.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlarla fəxri ad, orden və medallarla təltif olunmuş nazirliyin bir qrup əməkdaşına təltiflər təqdim edilib.

İclasda xidmətdə fərqlənən əməkdaşların həvəsləndirilməsi tədbirləri haqqında Fövqəladə Hallar nazirinin əmri barədə də məlumat verilib.

Sonda iclas iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə müraciət qəbul olunub.

# Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin gəlirləri 24 134 500,0 min manat, xərcləri 26 894 700,0 min manat (o cümlədən mərkəzləşdirilmiş gəlirləri 23 336 950,0 min manat, yerli gəlirləri 797 550,0 min manat, mərkəzləşdirilmiş xərcləri 26 044 596,0 min manat, yerli xərcləri 850 104,0 min manat) məbləğində təsdiq edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (min manatla) |
|---|---|---|
| 1 | 2 | 3 |
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 1 175 000,0 |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 2 656 500,0 |
| 2.3. | Hüquqi şəxslərin torpaq vergisi | 45 000,0 |
| 2.4. | Hüquqi şəxslərin əmlak vergisi | 211 000,0 |
| 2.5. | Əlavə dəyər vergisi | 4 735 000,0 |
| 2.5.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 2 705 000,0 |
| 2.6. | Sadələşdirilmiş vergi | 380 000,0 |
| 2.7. | Aksizlər | 1 049 000,0 |
| 2.7.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 300 000,0 |
| 2.8. | Yol vergisi | 121 000,0 |
| 2.8.1. | Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa görə və xarici dövlətlərin avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 45 000,0 |
| 2.9. | Mədən vergisi | 134 500,0 |
| 2.10. | Gömrük rüsumları | 950 000,0 |
| 2.11. | Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar | 220 000,0 |
| 2.12. | Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar | 2 381,0 |
| 2.13. | Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər | 2 780,0 |
| 2.14. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar (transfertin yuxarı həddi) | 11 350 000,0 |
| 2.15. | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 8 000,0 |
| 2.16. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 8 000,0 |
| 2.17. | Dövlət rüsumu | 190 000,0 |
| 2.18. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 839 500,0 |
| 2.19. | Sair daxilolmalar | 56 839,0 |

**Maddə 3.** Müəyyən edilsin ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu dövlət büdcəsinin aşağıdakı mədaxil mənbələri hesabına formalaşır:

*(min manatla)*

| | | |
|---|---|---|
| 3.1. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu | 322 000,0 |
| 3.1.1. | yol vergisi | 121 000,0 |
| 3.1.2. | mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi | 7 000,0 |
| 3.1.3. | idxal olunan minik avtomobillərinə tətbiq edilən aksizlər | 50 000,0 |
| 3.1.4. | idxal olunan avtonəqliyyat vasitələrinə tətbiq edilən gömrük rüsumu | 90 400,0 |
| 3.1.5. | Azərbaycan Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün tutulan dövlət rüsumu | 16 000,0 |
| 3.1.6. | nəqliyyat vasitələrinin, o cümlədən motonəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların texniki baxışdan keçirilməsi üçün tutulan dövlət rüsumu | 15 600,0 |
| 3.1.7. | Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirlərindən ayrılan vəsait | 22 000,0 |

**Maddə 4.** Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt (satış) qiyməti ilə (ixracla bağlı xərclər çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən dövlət büdcəsinə 30 faiz həcmində yığım tutulur və bu yığımlar vergiödəyicisinin vergilər, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə digər borclarının ödənilməsinə aid edilmir.

**Maddə 5.** Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirləri aşağıdakı mənbələr hesabına formalaşdırılır:

5.1. bu Qanunun 9-cu maddəsi ilə 2020-ci il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olan hissəsi (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid edilənlərdən başqa);

5.2. gömrük rüsumları, Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi və aksiz (Naxçıvan Muxtar Respublikasının gömrük orqanları tərəfindən toplanılanlardan başqa), dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar, xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar, səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar, sair daxilolmalar, dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyələşdirilən büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondunun gəlirləri tam həcmdə.

**Maddə 6.** Bu Qanunun 9-cu maddəsi ilə 2020-ci il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olmayan hissəsi onların yerli gəlirlərinin formalaşdırılmasına yönəldilir.

**Maddə 7.** Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 1 | 2 | 3 |
| 7.1. | Ümumi dövlət xidmətləri | 4 009 674 814,0 |
| 7.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 1 124 012 690,0 |
| 7.1.2. | beynəlxalq münasibətlər | 390 800 000,0 |
| 7.1.3. | xarici yardımlar | 22 000 000,0 |
| 7.1.4. | elm | 193 662 887,0 |
| 7.1.5. | seçkilərin keçirilməsi və statistika tədbirləri | 75 948 025,0 |
| 7.1.6. | büdcələrarası transfertlər | 375 090 000,0 |
| 7.1.6.1. | yerli (bələdiyyələr) büdcələrə verilən dotasiya | 5 000 000,0 |
| 7.1.6.2. | yerli (bələdiyyələr) büdcələrə verilən subvensiya | 1 200 000,0 |
| 7.1.6.3. | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya | 368 890 000,0 |
| 7.1.7 | dövlət borcu | 1 828 161 212,0 |
| 7.2. | Müdafiə və milli təhlükəsizlik | 3 853 585 721,0 |
| 7.2.1 | müdafiə qüvvələri | 1 722 854 459,0 |
| 7.2.2. | milli təhlükəsizlik | 235 651 063,0 |
| 7.2.3. | sərhəd xidməti | 285 189 961,0 |
| 7.2.4. | müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar | 3 890 602 ,0 |
| 7.2.5. | müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər | 1 605 999 636,0 |
| 7.3. | Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq | 1 970 437 123,0 |
| 7.3.1. | məhkəmə hakimiyyəti | 105 845 815,0 |
| 7.3.2. | hüquq mühafizə | 1 474 160 839,0 |
| 7.3.3. | prokurorluq | 68 168 696,0 |
| 7.3.4. | hüquqi yardım | 5 540 450,0 |
| 7.3.5. | məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyətlər | 316 721 323,0 |
| 7.4. | Təhsil | 3 155 797 681,0 |
| 7.4.1. | məktəbəqədər təhsil | 323 108 486,0 |
| 7.4.2. | ümumi təhsil | 1 705 352 803,0 |
| 7.4.3. | peşə təhsili | 53 959 508,0 |
| 7.4.4. | orta ixtisas təhsili | 74 341 607,0 |
| 7.4.5. | ali təhsil | 49 198 286,0 |
| 7.4.6. | əlavə təhsil | 4 362 063,0 |
| 7.4.7. | təhsil sahəsində tətbiqi tədqiqatlar | 4 922 874,0 |
| 7.4.8. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 940 552 054,0 |
| 7.5. | Səhiyyə | 1 369 011 949,0 |
| 7.5.1. | xəstəxanalar | 160 510 010,0 |
| 7.5.2. | diaqnostika, profilaktika və qan xidməti ilə bağlı fəaliyyətlər | 2 619 946,0 |
| 7.5.3. | səhiyyə sahəsində tətbiqi tədqiqatlar | 9 430 620,0 |
| 7.5.4. | səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 1 196 451 373,0 |
| 7.6. | Sosial müdafiə və sosial təminat | 3 244 591 912,0 |
| 7.6.1. | sosial müdafiə | 254 290 750,0 |
| 7.6.2. | sosial təminat | 52 683 746,0 |
| 7.6.3. | sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar | 60 000,0 |
| 7.6.4. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 2 937 557 416,0 |
| 7.6.4.1. | sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait | 1 426 914 030,0 |
| 7.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 441 921 500,0 |
| 7.7.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 178 714 885 ,0 |
| 7.7.2. | televiziya, radio və nəşriyyat | 51 975 598,0 |
| 7.7.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 55 050 241,0 |
| 7.7.4. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər | 156 180 776,0 |
| 7.8. | Mənzil və kommunal təsərrüfatı | 249 112 093,0 |
| 7.8.1. | mənzil | 32 691 008,0 |
| 7.8.2. | kommunal təsərrüfatı | 96 658 484,0 |
| 7.8.3. | su təsərrüfatı | 42 561 000,0 |
| 7.8.4. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 77 201 601,0 |
| 7.9. | Kənd təsərrüfatı | 920 990 081,0 |
| 7.9.1. | kənd təsərrüfatı tədbirləri | 447 361 919,0 |
| 7.9.2. | baytarlıq | 35 400 000,0 |
| 7.9.3. | meliorasiya | 426 001 762,0 |
| 7.9.4. | kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 12 226 400,0 |
| 7.10. | Ətraf mühitin mühafizəsi | 279 886 365,0 |
| 7.10.1. | bioloji zənginliyin qorunması | 7 993 619,0 |
| 7.10.2. | hidrometeorologiya tədbirləri | 12 366 533,0 |
| 7.10.3. | meşə təsərrüfatı | 17 445 817,0 |
| 7.10.4. | balıqçılıq və ovçuluq | 2 442 216,0 |
| 7.10.5. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 228 339 180,0 |
| 7.10.6. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 11 299 000,0 |
| 7.11. | İqtisadi fəaliyyət | 5 602 460 298,0 |
| 7.11.1. | nəqliyyat və rabitə | 302 704 248,0 |
| 7.11.2. | iqtisadi və kommersiya fəaliyyəti | 78 653 409,0 |
| 7.11.3. | tikinti və şəhərsalma | 4 910 561 800,0 |
| 7.11.3.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 4 909 000 000,0 |
| 7.11.4. | geodeziya və faydalı qazıntılar | 17 300 000,0 |
| 7.11.5. | yanacaq və enerji kompleksi | 4 700 000,0 |
| 7.11.6. | iqtisadi fəaliyyət sahələri üzrə tətbiqi tədqiqatlar | 1 500 000,0 |
| 7.11.7. | iqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər | 287 040 841,0 |
| 7.12. | Əsas bölmələrə aid edilməyən xərclər | 1 797 230 463,0 |
| 7.12.1. | ehtiyat fondları | 410 000 000,0 |
| 7.12.1.1. | Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu | 300 000 000,0 |
| 7.12.1.2. | Dövlət büdcəsinin Ehtiyat Fondu | 110 000 000,0 |
| 7.12.2. | məqsədli büdcə fondları | 322 000 000,0 |
| 7.12.2.1. | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu | 322 000 000,0 |
| 7.12.3. | valyuta konvertasiyası | 4 000 000,0 |
| 7.12.4. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 1 061 230 463,0 |
| 7.12.4.1. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 20 000 000,0 |
| 7.12.4.2. | sosial-iqtisadi islahatlar və digər tədbirlər üzrə xərclər | 1 041 230 463,0 |

**Maddə 8.** Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin xərcləri funksional və iqtisadi təsnifatın paraqrafları səviyyəsində bu Qanunun əlavəsində verilmiş məbləğlərdə təsdiq edilsin.

**Maddə 9.** Azərbaycan Respublikasının şəhər və rayonları üzrə gəlirlər 7.875.000.000,0 manat, o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ 114.600.000,0 manat, yerli xərclər 850.104.000,0 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 6.962.850.000,0 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 52.554.000,0 manat məbləğində təsdiq edilsin.

*(manatla)*

| № | Şəhər və rayonların adı | Gəlirlər | | Yerli xərclər | Gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin aşağı həddi | Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi |
|---|---|---|---|---|---|---|
| | | Cəmi | o cümlədən Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ | | | |
| | **Şəhərlər:** | | | | | |
| 1 | Bakı | 7 034 594 000 | 86 424 000 | 333 500 000 | 6 614 670 000 | 0 |
| 2 | Gəncə | 59 957 000 | 1 048 000 | 35 958 000 | 22 951 000 | 0 |
| 3 | Lənkəran | 22 234 000 | 1 338 000 | 13 973 000 | 6 923 000 | 0 |
| 4 | Mingəçevir | 26 888 000 | 75 000 | 19 555 000 | 7 258 000 | 0 |
| 5 | Naftalan | 5 178 000 | 2 000 | 3 289 000 | 1 887 000 | 0 |
| 6 | Sumqayıt | 128 147 000 | 1 549 000 | 45 356 000 | 81 242 000 | 0 |
| 7 | Şəki | 25 796 000 | 1 168 000 | 12 880 000 | 11 748 000 | 0 |
| 8 | Şirvan | 22 887 000 | 983 000 | 6 130 000 | 15 774 000 | 0 |
| 9 | Yevlax | 17 928 000 | 1 683 000 | 9 470 000 | 6 775 000 | 0 |
| 10 | Xankəndi | | | | | |
| | Rayonlar: | | | | | |
| 11 | Abşeron | 52 087 000 | 166 000 | 17 140 000 | 34 781 000 | 0 |
| 12 | Ağcabədi | 14 483 000 | 997 000 | 9 660 000 | 3 826 000 | 0 |
| 13 | Ağdam | 5 209 000 | 33 000 | 10 199 000 | 0 | 5 023 000 |
| 14 | Ağdaş | 6 297 000 | 19 000 | 7 566 000 | 0 | 1 288 000 |
| 15 | Ağstafa | 6 411 000 | 48 000 | 7 644 000 | 0 | 1 281 000 |
| 16 | Ağsu | 7 162 000 | 581 000 | 5 109 000 | 1 472 000 | 0 |
| 17 | Astara | 14 309 000 | 4 013 000 | 5 747 000 | 4 549 000 | 0 |
| 18 | Balakən | 5 655 000 | 1 222 000 | 6 371 000 | 0 | 1 938 000 |
| 19 | Beyləqan | 10 368 000 | 34 000 | 6 320 000 | 4 014 000 | 0 |
| 20 | Bərdə | 15 309 000 | 55 000 | 8 895 000 | 6 359 000 | 0 |
| 21 | Biləsuvar | 9 755 000 | 1 916 000 | 5 082 000 | 2 757 000 | 0 |
| 22 | Cəbrayıl | 1 298 000 | 15 000 | 3 513 000 | 0 | 2 230 000 |
| 23 | Cəlilabad | 8 928 000 | 35 000 | 8 107 000 | 786 000 | 0 |
| 24 | Daşkəsən | 3 792 000 | 2 000 | 3 790 000 | 0 | 0 |
| 25 | Füzuli | 7 438 000 | 19 000 | 10 067 000 | 0 | 2 648 000 |
| 26 | Gədəbəy | 6 040 000 | 38 000 | 7 047 000 | 0 | 1 045 000 |
| 27 | Goranboy | 5 502 000 | 17 000 | 8 840 000 | 0 | 3 355 000 |
| 28 | Göyçay | 11 130 000 | 23 000 | 7 967 000 | 3 140 000 | 0 |
| 29 | Göygöl | 12 202 000 | 8 000 | 6 771 000 | 5 423 000 | 0 |
| 30 | Hacıqabul | 7 045 000 | 10 000 | 3 507 000 | 3 528 000 | 0 |
| 31 | Xaçmaz | 31 518 000 | 4 008 000 | 9 056 000 | 18 454 000 | 0 |
| 32 | Xızı | 2 578 000 | 4 000 | 3 030 000 | 0 | 456 000 |
| 33 | Xocalı | 460 000 | 3 000 | 1 658 000 | 0 | 1 201 000 |
| 34 | Xocavənd | 740 000 | 35 000 | 2 211 000 | 0 | 1 506 000 |
| 35 | İmişli | 27 666 000 | 659 000 | 5 894 000 | 21 113 000 | 0 |
| 36 | İsmayıllı | 10 019 000 | 12 000 | 5 877 000 | 4 130 000 | 0 |
| 37 | Kəlbəcər | 1 401 000 | 3 000 | 4 323 000 | 0 | 2 925 000 |
| 38 | Kürdəmir | 9 158 000 | 18 000 | 5 255 000 | 3 885 000 | 0 |
| 39 | Qax | 4 339 000 | 17 000 | 9 322 000 | 0 | 5 000 000 |
| 40 | Qazax | 12 352 000 | 27 000 | 7 817 000 | 4 508 000 | 0 |
| 41 | Qəbələ | 21 151 000 | 24 000 | 7 569 000 | 13 558 000 | 0 |
| 42 | Qobustan | 3 469 000 | 5 000 | 3 978 000 | 0 | 514 000 |
| 43 | Quba | 20 017 000 | 64 000 | 7 404 000 | 12 549 000 | 0 |
| 44 | Qubadlı | 3 222 000 | 4 000 | 3 218 000 | 0 | 0 |
| 45 | Qusar | 10 497 000 | 28 000 | 5 711 000 | 4 758 000 | 0 |
| 46 | Laçın | 2 368 000 | 73 000 | 4 981 000 | 0 | 2 686 000 |
| 47 | Lerik | 2 806 000 | 5 000 | 5 188 000 | 0 | 2 387 000 |
| 48 | Masallı | 10 973 000 | 35 000 | 7 810 000 | 3 128 000 | 0 |
| 49 | Neftçala | 8 989 000 | 28 000 | 5 970 000 | 2 991 000 | 0 |
| 50 | Oğuz | 3 362 000 | 30 000 | 5 449 000 | 0 | 2 117 000 |
| 51 | Saatlı | 11 558 000 | 9 000 | 8 052 000 | 3 497 000 | 0 |
| 52 | Sabirabad | 12 774 000 | 18 000 | 6 384 000 | 6 372 000 | 0 |
| 53 | Salyan | 14 131 000 | 24 000 | 6 824 000 | 7 283 000 | 0 |
| 54 | Samux | 3 555 000 | 15 000 | 5 321 000 | 0 | 1 781 000 |
| 55 | Siyəzən | 4 572 000 | 16 000 | 3 655 000 | 901 000 | 0 |
| 56 | Şabran | 6 542 000 | 19 000 | 3 964 000 | 2 559 000 | 0 |
| 57 | Şamaxı | 11 872 000 | 16 000 | 8 027 000 | 3 829 000 | 0 |
| 58 | Şəmkir | 19 421 000 | 59 000 | 13 894 000 | 5 468 000 | 0 |
| 59 | Şuşa | 1 387 000 | 2 000 | 2 243 000 | 0 | 858 000 |
| 60 | Tərtər | 5 848 000 | 16 000 | 8 645 000 | 0 | 2 813 000 |
| 61 | Tovuz | 20 845 000 | 5 698 000 | 11 143 000 | 4 004 000 | 0 |
| 62 | Ucar | 4 939 000 | 16 000 | 5 876 000 | 0 | 953 000 |
| 63 | Yardımlı | 2 745 000 | 8 000 | 4 668 000 | 0 | 1 931 000 |
| 64 | Zaqatala | 8 548 000 | 65 000 | 10 978 000 | 0 | 2 495 000 |
| 65 | Zəngilan | 1 902 000 | 4 000 | 2 825 000 | 0 | 927 000 |
| 66 | Zərdab | 3 247 000 | 12 000 | 6 431 000 | 0 | 3 196 000 |
| | **Cəmi:** | **7 875 000 000** | **114 600 000** | **850 104 000** | **6 962 850 000** | **52 554 000** |

**Maddə 10.** Bu Qanunun 9-cu maddəsi ilə müəyyən edilmiş yerli xərclərin maliyyələşdirilməsi məqsədilə şəhər və rayonların gəlirləri, həmçinin yerli gəlir və xərcləri tənzimləmək üçün ayrılan vəsaitin yuxarı həddi yerli xərcləri təmin etmədikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin şəhər və rayonlara, onların xərclərinin 10 faizindən çox olmayan hissəsi qədər dövlət büdcəsindən vəsait ayırır.

**Maddə 11.** Azərbaycan Respublikasının 2020-ci ildə dövlət daxili və xarici borclarına xidmətlərlə bağlı xərclərin yuxarı hədləri aşağıdakı kimi təsdiq edilsin:

*(manatla)*

| | | |
|---|---|---|
| 11.1. | Daxili dövlət borcu üzrə o cümlədən | **133.148.334,0** |
| | faiz ödənişləri | 120.151.349,0 |
| 11.2. | Xarici dövlət borcu üzrə o cümlədən | **1.695.012.878,0** |
| | faiz ödənişləri | 517.885.588,0 |

**Maddə 12.** Azərbaycan Respublikasının 2020-ci il üzrə daxili dövlət borclanmasının yuxarı həddi (limiti) 400 000,0 min manat, xarici dövlət borclanmasının yuxarı həddi (limiti) 1 000 000,0 min manat təsdiq edilsin. İl ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) 1 000 000,0 min manat məbləğində təsdiq edilsin.

**Maddə 13.** Dövlət büdcəsinin icrası prosesində "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə əsasən müdafiə olunan xərc maddələri, ilk növbədə, digər xərc maddələri isə dövlət büdcəsinin gəlirləri və kəsirinin maliyyələşdirilməsi mənbələri üzrə daxilolmaların vəziyyətindən asılı olaraq maliyyələşdirilir.

**Maddə 14.** Dövlət büdcəsi kəsirinin yuxarı həddi 2 760 200,0 min manat məbləğində təsdiq edilsin. Onun maliyyələşdirilməsi özəlləşdirmədən, digər mənbələrdən daxilolmalar (daxili və xarici borclanma, 2020-ci ilin 1 yanvar tarixinə dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı) hesabına həyata keçirilsin.

**Maddə 15.** Azərbaycan Respublikasının 2020-ci il icmal büdcəsinin xərclərinin yuxarı həddinin məbləği 29 488 124,0 min manat müəyyən edilsin.

**Maddə 16.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) gəlirləri nəzərə alınmadan, Azərbaycan Respublikasının 2020-ci il icmal büdcəsi kəsirinin yuxarı həddinin məbləği 14 320 200,0 min manat məbləğində müəyyən edilsin.

**Maddə 17.** Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

# “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

2. Müəyyən edilsin ki, bu Fərmanın 1.9.1.2-ci (Kənd təsərrüfatı sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.10.5.4-cü (Ətraf mühitin mühafizəsi sahəsi üzrə yaşayış məntəqələrinə aid olan kommunal təyinatlı infrastrukturların bərpası, yenidən qurulması və abadlaşdırılması), 1.11.1.7-ci (Sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi), 1.11.3.2-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri), 1.12.4.2.1-ci (İnsan hüquqları üzrə Avropa Məhkəməsi qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin Məhkəmənin qərarlarının icrası, dövlət təltiflərinin hazırlanması) və 1.12.4.2.7-ci (İslahatlarla bağlı xərclər) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə dövlət büdcəsinin gəlirləri və xərcləri üzrə təsdiq olunmuş göstəricilərin yerinə yetirilməsinə nəzarət etsin;

3.2. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla:

3.2.1. bu Fərmanın 1.1.1.56-cı (Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.1.4.12-ci (Elm sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir), 1.2.1.3-cü (Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.2.5.2-ci (Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər), 1.3.1.9-cu (Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.4.8.14-cü (Təhsil sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir), 1.6.4.8-ci (Sosial müdafiə və sosial təminat sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir), 1.7.4.18-ci (Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir), 1.9.1.5-ci (Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər) və 1.12.4.2.6-cı (Yaşayış məntəqələri ilə bağlı zəruri tədbirlərin maliyyələşdirilməsi) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri həyata keçirsin;

3.2.2. bu Fərmanın 1.1.4.14-cü, 1.4.8.16-cı, 1.5.1.7-ci, 1.7.4.20-ci, 1.8.4.4-cü, 1.11.1.9-cu, 1.11.2.2-ci, 1.11.5.1-ci və 1.11.7.9-cu yarımbəndlərində nəzərdə tutulan vəsaitin (Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması) bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri həyata keçirsin;

3.3. bu Fərmanın 1.1.2.1-ci (Beynəlxalq və regional təşkilatlarla və maliyyə institutları ilə əməkdaşlıq), 1.1.2.3-cü (Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər), 1.1.2.4.2-ci (Beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər), 1.1.3-cü (Xarici yardımlar), 1.1.6.1-ci (Yerli büdcələrə (bələdiyyələrə) verilən dotasiya) və 1.1.6.2-ci (Yerli büdcələrə (bələdiyyələrə) verilən subvensiya) yarımbəndlərində nəzərdə tutulan vəsaitin xərc istiqamətləri və tədbirlər üzrə bölgüsünü həyata keçirsin;

3.4. bu Fərmanın 1.1.2.2-ci (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları) yarımbəndində nəzərdə tutulan vəsaitin Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları üzrə manat və müvafiq xarici valyutalarda bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri həyata keçirsin;

3.5. bu Fərmanın 1.1.1.55-ci, 1.4.8.12-ci, 1.5.4.10-cu, 1.11.3.3-cü, 1.11.7.3.1-ci və 1.12.1.2-ci yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

3.6. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin, Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifləri əsasında, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən geoloji-kəşfiyyat, xəritəçəkmə, şəhərsalma və ərazilərin minalardan təmizlənməsi işlərini dövlət sifarişi kimi iki ay müddətində təsdiq etsin;

3.7. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin təklifləri əsasında vergi və gömrük güzəştlərinin səmərəliliyinin qiymətləndirilməsi qaydalarını hazırlayıb doqquz ay müddətində təsdiq etsin;

3.8. 2021-ci il və sonrakı üç il üçün ölkənin yanacaq-enerji balansını hazırlayıb altı ay müddətində təsdiq etsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

4.1. 2020-ci ilin dövlət büdcəsinə vergi və dövlət rüsumları üzrə nəzərdə tutulan daxilolmaların aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla on beş gün müddətində təsdiq etsin;

4.2. 2020-ci ilin dövlət büdcəsinə tutulması dövlət gömrük orqanlarının səlahiyyətlərinə aid edilmiş vergilər və gömrük rüsumları üzrə nəzərdə tutulan daxilolmaların aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə razılaşdırmaqla on beş gün müddətində təsdiq etsin;

4.3. bu Fərmanın 1.7.4.12-ci, 1.11.7.8-ci, 1.12.4.2.4-cü və 1.12.4.2.5-ci yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

4.4. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla:

4.4.1. bu Fərmanın 1.1.4.11-ci (Elm sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər), 1.3.5.2-ci (Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər), 1.4.8.13-cü (Təhsil sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər), 1.5.4.9-cu (Səhiyyə sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər), 1.6.4.5-ci (Sosial təminat sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər), 1.7.4.17-ci (Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər), 1.8.4.2-ci (Mənzil və kommunal təsərrüfatı sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri həyata keçirsin;

4.4.2. bu Fərmanın 1.1.1.57-ci, 1.1.4.13-cü, 1.2.1.4-cü, 1.3.5.3-cü, 1.4.8.15-ci, 1.5.4.11-ci, 1.6.3.1-ci, 1.7.4.19-cu, 1.9.4.1-ci, 1.10.6.1-ci, 1.11.7.6-cı və 1.12.4.2.3-cü yarımbəndlərində nəzərdə tutulan vəsaitin (dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri) gəlir və xərclər smetasının aidiyyəti təşkilatlar üzrə təsdiqini iki ay müddətində həyata keçirsin;

4.5. İcbari tibbi sığortanın ölkənin inzibati ərazi vahidləri üzrə tətbiqi ardıcıllığına uyğun olaraq əhalinin sayına müvafiq hesablanmış sığorta haqqının, habelə "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 16-4.1-ci maddəsinə əsasən icbari tibbi sığortanın mərhələli tətbiqini nəzərə alaraq icbari tibbi sığorta ilə əhatə olunmayan inzibati ərazi vahidlərinin səhiyyə xərclərinin bu Fərmanın 1.5.4.9-cu yarımbəndində nəzərdə tutulmuş vəsait hesabına maliyyələşdirilməsini təmin etsin;

4.6. "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu, 13-cü və 14-cü maddələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etsin;

4.7. "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsi ilə təsdiq edilmiş daxili və xarici borcalmanın, il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) çərçivəsində bazar konyunkturundan asılı olaraq milli və xarici valyutada borcalmanın, o cümlədən dövlət istiqrazlarının buraxılışının həyata keçirilməsi üçün tədbirlər görsün.

5. Azərbaycan Respublikasının Dövlət Neft Fondu Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə nəzərdə tutulan transfertin yuxarı həddinin aylıq və rüblük bölgü əsasında həyata keçirilməsini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə əlaqələndirməklə təmin etsin.

6. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi bu Fərmanın 1.7.4.10-cu (Qeyri-dövlət təşkilatlarına verilən maliyyə yardımı) yarımbəndində nəzərdə tutulan vəsaitin aidiyyəti təşkilatlar arasında bölgüsünü iyirmi gün müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin və maliyyələşdirməni təmin etsin.

7. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

7.1. bu Fərmanın 1.11.7.1.1-ci (Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin saxlanılması) yarımbəndində nəzərdə tutulan vəsaitin ticarət nümayəndələri üzrə bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin;

7.2. bu Fərmanın 1.11.7.4-cü (Qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

7.3. bu Fərmanın 1.11.3.2-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsü ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.4. 2020-ci il dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsi ilə bağlı özəlləşdirmədən daxilolmalar üzrə nəzərdə tutulmuş vəsaitin tam məbləğdə büdcəyə təmin edilməsi üçün təsirli tədbirlər görsün;

7.5. növbəti illər üçün dövlət büdcəsinin gəlirlərinin proqnozlaşdırılması məqsədilə:

7.5.1. 2019-cu ildə əlavə dəyər vergisi ödəyiciləri üzrə (fəaliyyət göstərdikləri şəhər və rayonlar göstərilməklə) hesablanmış, azaldılmış və dövlət büdcəsinə daxil olmuş vergilərə dair məlumatları 2020-ci il aprel ayının 1-dək;

7.5.2. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan xidmətləri və hüquqi hərəkətləri həyata keçirən ayrı-ayrı dövlət orqanları (qurumları) üzrə dövlət büdcəsinə təmin edilmiş dövlət rüsumuna dair aylıq məlumatları hesabat ayından sonrakı ayın 20-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin.

8. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Fərmanın 1.1.2.4.1-ci (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü bir ay müddətində həyata keçirsin.

9. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi "Azərsu" Açıq Səhmdar Cəmiyyəti ilə razılaşdırmaqla bu Fərmanın 1.10.5.3-cü (Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı) və 1.10.5.5-ci (Ətraf mühitin mühafizəsi sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin və maliyyələşdirməni təmin etsin.

10. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi bu Fərmanın 1.11.1.8-ci (Nəqliyyat və rabitə sahələrində islahatların aparılması və digər tədbirlərin maliyyələşdirilməsi) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin və maliyyələşdirməni təmin etsin.

11. Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları, büdcədən maliyyələşən və maliyyə yardımı alan təşkilatlar, həmçinin digər dövlət orqanları maliyyə intizamının gücləndirilməsi, israfçılığa, izafi xərclərə yol verilməməsi və büdcə vəsaitindən qənaətlə istifadə olunması istiqamətində təsirli tədbirlər görsünlər.

12. Müəyyən edilsin ki:

12.1. "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 2.14-cü, 5.2-ci (birinci halda) və 16-cı maddələrində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir, "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Fondu nəzərdə tutulur;

12.2. həmin Qanunun 3-cü, 3.1-ci, 5.1-ci, 5.2-ci (ikinci halda), 7.12.2.1-ci və 9-cu (hər iki halda) maddələrində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir, "məqsədli büdcə fondu" dedikdə "Avtomobil yolları" Məqsədli Büdcə Fondu nəzərdə tutulur;

12.3. həmin Qanunun 7.6.4.1-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu nəzərdə tutulur;

12.4. həmin Qanunun 10-cu maddəsində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir, "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur.

13. Bu Fərmanın 1-ci hissəsi 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2019-cu il*

# Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) 2020-ci il büdcəsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) 2020-ci il büdcəsinin gəlirləri 4 825 508 800,0 manat, xərcləri 4 825 508 800,0 manat məbləğində təsdiq edilir.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2020-ci ildə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | Məcburi dövlət sosial sığorta haqları, cəmi o cümlədən: | 3 392 594 770,0 |
| 1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 1 238 683 400,0 |
| 1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 168 911 370,0 |
| 1.3. | qeyri-büdcə sektoru üzrə o cümlədən: | 1 985 000 000,0 |
| | sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə | 80 000 000,0 |
| 2. | Sair gəlirlər, cəmi o cümlədən: | 6 000 000,0 |
| | sanatoriya-kurort yollayışlarının qismən dəyəri üzrə daxilolmalar | 2 000 000,0 |
| 3. | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait | 1 426 914 030,0 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) 2020-ci il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | Əhaliyə ödənişlər üzrə xərclər | 4 684 678 800,0 |
| 1.1. | əmək pensiyalarının ödənilməsi xərcləri | 4 570 078 800,0 |
| 1.2. | məcburi dövlət sosial sığorta haqları hesabına müavinət xərcləri | 114 600 000,0 |
| 1.2.1. | əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə | 28 000 000,0 |
| 1.2.2. | hamiləliyə və doğuşa görə | 34 000 000,0 |
| 1.2.3. | uşağın anadan olmasına görə | 14 900 000,0 |
| 1.2.4. | 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar | 14 500 000,0 |
| 1.2.5. | dəfn üçün | 23 200 000,0 |
| 2. | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası xətti ilə sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə xərclər | 20 470 000,0 |
| 3. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri, eləcə də pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri | 33 900 000,0 |
| 4. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və onun yerli orqanlarının saxlanılması xərcləri | 84 800 000,0 |
| 5. | Beynəlxalq təşkilatlara üzvlük haqlarının ödənilməsi xərcləri | 60 000,0 |
| 5.1. | Beynəlxalq Sosial Təminat Assosiasiyasına üzvlük haqqının ödənilməsi xərcləri | 30 000,0 |
| 5.2. | Pensiya və Sosial Fondların Beynəlxalq Assosiasiyasına üzvlük haqqının ödənilməsi xərcləri | 30 000,0 |
| 6. | Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında 2004-cü il 23 sentyabr tarixdə imzalanmış "İnkişaf üçün Kredit Sazişi"nə əsasən "Pensiya və sosial təminat" layihəsi üzrə kreditin qaytarılması xərcləri | 1 600 000,0 |

**Maddə 4. Qalıqlardan istifadə**

Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və yerli orqanlarının hesablarında ilin sonuna qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

**Maddə 5. Büdcə təşkilatları üzrə sosial sığorta haqları üzrə daxilolmaların tənzimlənməsi**

Büdcə ili ərzində dövlət büdcəsindən maliyyələşən təşkilatlara nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə vəsaitlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) xəzinə hesablarına tam məbləğdə daxil olmadıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin məbləği nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər artırılır, artıq daxil olduqda isə nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər azaldılır.

**Maddə 6. Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## Azərbaycan Respublikasında 2020-ci il üçün ehtiyac meyarının həddi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Ehtiyac meyarının həddi**

Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2020-ci il üçün ehtiyac meyarının həddi 160 manat məbləğində təsdiq edilsin.

**Maddə 2. Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## Azərbaycan Respublikasında 2020-ci il üçün yaşayış minimumu haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**Maddə 1. Əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği**

2020-ci il üçün yaşayış minimumu ölkə üzrə 190 manat, əmək qabiliyyətli əhali üçün 201 manat, pensiyaçılar üçün 157 manat, uşaqlar üçün 170 manat məbləğində müəyyən edilsin.

**Maddə 2. Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## İşsizlikdən sığorta fondunun 2020-ci il büdcəsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

İşsizlikdən sığorta fondunun 2020-ci il büdcəsinin gəlirləri 128 235 400,0 manat, xərcləri 128 235 400,0 manat məbləğində təsdiq edilir.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2020-ci ildə İşsizlikdən sığorta fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | İşsizlikdən sığorta üzrə sığorta haqları, cəmi o cümlədən: | 111 869 600,00 |
| 1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 17 834 800,0 |
| 1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 17 834 800,0 |
| 1.3. | qeyri-büdcə sektoru üzrə | 76 200 000,00 |
| 2. | Sair gəlirlər | 30 000,00 |
| 3. | 2019-cu ilin sonuna İşsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaiti | 16 335 800,0 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, İşsizlikdən sığorta fondunun 2020-ci il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | İşsizliyə görə sığorta ödənişləri | 5 000 000,00 |
| 2. | Peşə hazırlığı və əlavə təhsilin təşkili | 5 000 000,00 |
| 3. | Peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsi | 2 000 000,00 |
| 4. | Əmək yarmarkalarının, əmək birjalarının təşkili | 500 000,00 |
| 5. | Haqqı ödənilən ictimai işlərin təşkili | 2 000 000,00 |
| 6. | Özünüməşğulluq tədbirlərinin təşkili | 63 735 400,00 |
| 7. | Sığortaolunanların əməkhaqqının müəyyən hissəsinin müəyyən müddətə (3 ay, 6 ay, 9 ay, 1 il) sığortaedənlərlə birlikdə maliyyələşdirilməsi | 3 000 000,00 |
| 8. | Peşə standartlarının hazırlanması | 2 000 000,00 |
| 9. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və onun yerli orqanlarının və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) saxlanılması xərcləri | 43 000 000,00 |
| 10. | Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin olunması üçün əlavə iş yerlərinin və ixtisaslaşdırılmış müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi | 1 000 000,00 |
| 11. | Qanunla əmək hüququnun həyata keçirilməsi üçün nəzərdə tutulmuş digər aktiv məşğulluq tədbirləri | 1 000 000,00 |

**Maddə 4. Qalıqlardan istifadə**

İlin sonuna İşsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaitləri növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

**Maddə 5. Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## "İşsizlikdən sığorta fondunun 2020-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1698-VQ nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İşsizlikdən sığorta fondunun 2020-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1698-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "İşsizlikdən sığorta fondunun 2020-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 9-cu hissəsində (hər iki halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 3-cü maddəsinin 9-cu hissəsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti nəzərdə tutulur;

1.3. həmin Qanunun 3-cü maddəsinin 9-cu hissəsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi, həmçinin Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 25.1-ci və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 19.0.2.6-cı maddələri ilə nəzərdə tutulan sosial iş yerlərində işçilərin əməkhaqlarının bir hissəsinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən maliyyələşdirilməsi qaydasının təkmilləşdirilməsini iki ay müddətində təmin etsin;

2.2. "İşsizlikdən sığorta fondunun 2020-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. İşsizlikdən sığorta fondunun 2020-ci il büdcəsinin gəlirlərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

3.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

4.1. İşsizlikdən sığorta fondunun 2020-ci il büdcəsinin xərclərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

4.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları və büdcədən maliyyələşən təşkilatlar büdcədənkənar vəsaitlər üzrə 2019-cu ildə yaranmış işsizlikdən sığorta haqları borclarını 2020-ci il üçün xüsusi vəsaitlərin smetalarında nəzərə alsınlar.

6. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, şəhər və rayon icra hakimiyyətlərinə tapşırılsın ki, ərazilərindəki dövlət təşkilatlarının, o cümlədən büdcədən maliyyələşən təşkilatların işsizlikdən sığorta üzrə sığorta haqlarını vaxtında və tam ödəməsini təmin etmək üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində olan qurumlarla birlikdə tədbirlər həyata keçirsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2019-cu il*

## "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1669; 2019, № 1, maddə 35, № 3, maddə 381) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1.21-ci maddədən "ən azı 3 (üç) ay əvvəl" sözləri çıxarılsın;

1.2. 25.6-cı maddədə "5 faizindən" sözləri "20 faizindən, lakin hər bir işəgötürən üzrə 10 sosial iş yerindən" sözləri ilə əvəz edilsin;

1.3. 25.7-ci maddədə "digər iş yerləri üzrə" sözləri "eyni vəzifə (peşə) üzrə digər iş yerlərindəki" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 avqust tarixli 1569 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 avqust tarixli 1569 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1516; 2018, № 12 (I kitab), maddə 2579; 2019, № 6, maddə 1038, № 7, maddə 1217) 2.9-cu bəndi aşağıdakı redaksiyada verilsin:

"2.9. həmin Qanunun 19.0.5-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya nəzərdə tutulur;".

2. Bu Fərman 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2019-cu il*

## "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238, № 10, maddə 1991, № 11, maddə 2287; 2019, № 3, maddə 411, № 4, maddə 619, № 5, maddələr 839, 855, № 6, maddə 1027; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 2 iyul tarixli 766 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

1. 5.2-ci bənd ləğv edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Nizamnaməsi"nin 7.1-ci bəndində "5,0 (beş) milyon" sözləri "10 126 118 (on milyon yüz iyirmi altı min yüz on səkkiz)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2019-cu il*

## "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**Maddə 1.** "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 76; 2007, № 10, maddə 933; 2008, № 6, maddələr 464, 475; 2013, № 1, maddə 19, № 6, maddə 618, № 11, maddələr 1240, 1306; 2017, № 7, maddə 1278; 2018, № 3, maddə 400, № 5, maddə 869; 2019, № 3, maddə 380) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.0.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"1.0.2. əmək qabiliyyəti olmayan şəxslər - əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci və 8-ci maddələri ilə müəyyən edilmiş yaş həddinə çatan şəxslər, vəfat etmiş şəxsin 18 yaşına çatmamış (əyani təhsil alanlar təhsili bitirənədək, lakin 23 yaşdan çox olmamaqla), yaxud 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı əlil övladları.";

1.2. 5-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"5.1. Bu Qanunun 4.0.1.1-4.0.1.3-cü, 4.0.1.5-4.0.1.6-cı və 4.0.1.13-cü maddələrində nəzərdə tutulan aylıq müavinətlərdən bir neçəsini almaq hüququ olan şəxslər öz arzusuna əsasən bir növ aylıq müavinət seçə bilərlər.

5.2. Bu Qanunun 4.0.1.4-cü və 4.0.1.5-ci maddələrində nəzərdə tutulan müavinətlərdən hər ikisini almaq hüququ olan uşaqlara hər iki növ aylıq müavinət təyin edilir.

5.3. Bu Qanunun 5.2-ci maddəsi həmin maddədə göstərilən müavinətlərin 2020-ci il yanvarın 1-dən əvvəlki dövr üçün təyin edilməsi və ya yenidən hesablanması hallarına və ailə başçısını itirməyə görə əmək pensiyası almaq hüququ olan ("Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 14.4-cü maddəsində göstərilən hal istisna olmaqla) sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara münasibətdə tətbiq edilmir.";

1.3. 7.0.5.1-ci maddəyə "olmadıqda" sözündən sonra "("Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 14.4-cü maddəsində göstərilən hal istisna olmaqla)" sözləri əlavə edilsin;

1.4. Aşağıdakı məzmunda 9.1-1-ci maddə əlavə edilsin:

"9.1-1. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 14.4-cü maddəsində nəzərdə tutulan şəxslərə ailə başçısını itirməyə görə sosial müavinətin 2020-ci il yanvarın 1-dən əvvəlki dövr üçün təyin edilməsinə (yenidən hesablanmasına) yol verilmir.".

**Maddə 2.** Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208, № 12, maddə 1019; 2007, № 12, maddə 1194; 2008, № 4, maddə 254, № 6, maddə 464, № 7, maddə 602, № 8, maddələr 699, 710; 2009, № 6, maddələr 395, 399, № 11, maddələr 877, 879; 2010, № 7, maddə 579; 2011, № 4, maddə 267, № 6, maddə 465, № 7, maddə 597, № 12, maddə 1109; 2012, № 11, maddələr 1037, 1044; 2013, № 3, maddə 223, № 5, maddə 485, № 6, maddələr 608, 614; 2015, № 5, maddə 494; 2017, № 5, maddə 676, № 7, maddə 1289, № 10, maddə 1776, № 12 (I kitab), maddə 2193; 2018, № 5, maddə 865, № 12 (I kitab), maddə 2504; 2019, № 2, maddə 205, № 3, maddə 380, № 5, maddələr 805, 808, № 8, maddələr 1374, 1382; Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1685-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 6-1-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Təyin edilmiş əmək pensiyasının məbləğinin əmək pensiyasının minimum məbləğinə çatdırılması məqsədilə bu maddəyə əsasən ödənilən məbləğ əmək pensiyasının sığorta hissəsinin tərkibi hesab edilir.";

1.2. Aşağıdakı məzmunda 14.4-cü maddə əlavə edilsin:

"14.4. Bu Qanunun 18.2-ci maddəsinə uyğun olaraq ailə başçısını itirməyə görə hesablanmış əmək pensiyasının sığorta hissəsinin onlardan hər birinə düşən məbləği "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş ailə başçısını itirməyə görə sosial müavinətin məbləğindən az olduqda, əmək qabiliyyəti olmayan ailə üzvlərinin hər biri ailə başçısını itirməyə görə pensiya əvəzinə ailə başçısını itirməyə görə sosial müavinət almaq hüququna malikdir.".

**Maddə 2.** Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) 2020-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1697-VQ nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) 2020-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1697-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) 2020-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun adında, 1-ci maddəsində, 2-ci maddəsinin birinci abzasında və 3-cü hissəsində, 3-cü maddəsinin birinci abzasında, 3-cü və 4-cü hissələrində, 4-cü və 5-ci (hər iki halda) maddələrində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun adında, 1-ci maddəsində, 2-ci maddəsinin birinci abzasında və 3-cü hissəsində, 3-cü maddəsinin birinci abzasında və 4-cü hissəsində, 4-cü və 5-ci (hər iki halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu nəzərdə tutulur;

1.3. həmin Qanunun 3-cü maddəsinin 3-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) 2020-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. həmin Qanunun 2-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

3.2. həmin Qanunun 2-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərin aylıq və rüblük bölgüsünü on gün müddətində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla təsdiq etsin.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

4.1. Nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun 2020-ci il büdcəsinin xərclərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

4.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

5.1. bu Fərmanın 3.2-ci bəndi ilə təsdiq ediləcək razılaşma nəzərə alınmaqla, 2020-ci il üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin (transfertin) aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla on gün müddətində təsdiq etsin;

5.2. yerli icra hakimiyyəti orqanları və büdcədən maliyyələşən təşkilatlar büdcədənkənar vəsaitlər üzrə əvvəlki illərdə yaranmış məcburi dövlət sosial sığorta haqları borclarını 2020-ci il üçün xüsusi vəsaitlərin smetalarında nəzərə alsınlar.

6. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, şəhər və rayon icra hakimiyyətlərinə tapşırılsın ki, ərazilərindəki dövlət təşkilatlarının, o cümlədən büdcədən maliyyələşən təşkilatların məcburi dövlət sosial sığorta haqlarını vaxtında və tam ödəməsini təmin etmək üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində olan qurumlarla birlikdə tədbirlər həyata keçirsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2019-cu il*

# Ukrayna Prezidenti Vladimir Zelenski Azərbaycana rəsmi səfərə gəlib



Ukrayna Prezidenti Vladimir Zelenski dekabrın 16-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Ukrayna Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Ukrayna Prezidenti Vladimir Zelenskini və xanımı Yelena Zelenskayanı hava limanında Azərbaycan Respublikası Baş Nazirinin Birinci müavini Yaqub Eyyubov, Xarici İşlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşıladılar.

# AHİK-in sədri Pan Avropa Regional Şurasının vitse-prezidenti seçilib



Belçikanın paytaxtı Brüsseldə Pan Avropa Regional Şurasının (PARŞ) 4-cü Baş Assambleyası keçirilib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından AZƏRTAC-a bildiriblər ki, tədbirdə PARŞ-ın 2016-2019-cu illərdəki fəaliyyəti haqqında hesabat və 2020-2023-cü illər üçün siyasi sənəd müzakirə edilib. Pan Avropa Regional Şurasının prezidenti İ.Petriaşvili, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının baş katibi Ş.Barrou və PARŞ-ın baş katibi L.Visentini forumda giriş nitqi söyləyiblər.

Tədbirdə çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri, AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev 3-cü Baş Assambleyadan ötən müddət ərzində Avropa həmkarlar ittifaqlarının əsas məqsədlərinə nail olunması, yəni, əməkçilərin mənafeyi uğrunda mübarizənin zəngin ənənələrindən daha geniş istifadə olunması, həmkarlar ittifaqlarının həmrəyliyinin daha yüksək səviyyəyə çatdırılması istiqamətində əhəmiyyətli addımların atıldığını bildirib.

Azərbaycanda "2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı"nın uğurla həyata keçirilməsinin ölkəmizin sosial-iqtisadi inkişafında müsbət dəyişikliklərə gətirib çıxardığını deyən AHİK-in sədri bildirib ki, aparılan genişmiqyaslı islahatlar, layiqli əmək strategiyasının reallaşdırılmasına yönəlmiş tədbirlər zəhmətkeşlərin rifah halının yüksəldilməsini şərtləndirib.

Həmçinin Baş Assambleyada Pan Avropa Regional Şurasının yeni rəhbərliyi və tərkibi seçilib. İ.Petriaşvili yenidən Pan Avropa Regional Şurasının prezidenti, AHİK-in sədri Səttar Möhbalıyev isə yeni müddətə qurumun vitse-prezidenti seçiliblər.

Yenidən quruma vitse-prezident seçilməsinə görə minnətdarlığını çatdıran AHİK-in sədri bunu Azərbaycan həmkarlar ittifaqlarının əməyinə verilən yüksək qiymət və etimad kimi dəyərləndirib.

# Azərbaycan-Gürcüstan enerji sistemləri optik kabellə əlaqələndirildi



Azərbaycan-Gürcüstan sərhədində hər iki ölkənin enerji sistemləri üçün əhəmiyyətli layihə gerçəkləşdirilib. Belə ki, ötən ilin 18 dekabr tarixində "Gürcüstan Dövlət Elektrosistem" və "Azərenerji" səhmdar cəmiyyətlərinin rəhbərləri tərəfindən imzalanan memoranduma uyğun olaraq, bu ilin 12-13 dekabr tarixlərində hər iki ölkənin enerji sistemləri optik kabellə əlaqələndirilib.

Səlahiyyətli nümayəndə olaraq "Azərenerji"dən Əhməd Muradlı, "Gürcüstan Dövlət Elektrosistem"dən Georgi Amuzaşvili və "SakRusenergo"dan Vaxtanq Kikvadze optik kabelin qoşulması prosesinə nəzarət ediblər. Optik kabellə əlaqələndirilmə hər iki dövlətin enerji sitemləri arasında məlumat mübadiləsinin yüksəldilməsinə xidmət edəcək, SCADA məlumatlarının, rele mühafizəsi və əks qəza təsirlərinin ötürülməsində əvəzsiz rol oynayacaq. Eyni zamanda elektrik enerjisinin idxal-ixrac prosesini real vaxt rejimində izləməyə texniki imkan yaradacaq. Optik kabel Azərbaycanın 500 kilovoltluq "Samux" yarımstansiyası ilə Gürcüstanın 500 kilovoltluq "Qardabani" yarımstansiyasını və oradan da bütün sistemi əlaqələndirəcək. Onu da qeyd edək ki, hazırda Gürcüstan Respublikası ilə elektrik enerjisi mübadiləsində etibarlığı artırmaq və daha çox elektrik enerjisi ixrac etmək, o cümlədən Gürcüstandan tranzit etməklə Avropa bazarına çıxış imkanlarını daha da artırmaq məqsədilə **330 kilovoltluq "Ağstafa-Qardabani"** hava xətti 44 km məsafədə, 2 dövrəli variantda yenidən qurulur. Layihə üzrə quraşdırılacaq 162 ədəd dayaqdan artıq 155-i quraşdırılıb və işlərin böyük hissəsi görülüb.

Onu da xatırladaq ki, Gürcüstan Respublikası Azərbaycanın ən böyük elektrik enerjisi ixrac etdiyi ölkədir.

***"Azərbaycan"***

# "Equinor" Azərbaycandakı işini yeni layihələrlə davam etdirir



***Əvvəli 1-ci səh.***

Bu yataq şərq istiqamətdə Bakıdan 120 kilometr aralıda, dənizin 150-200 metr dərinliyində yerləşir. "Qarabağ"ı "Azəri-Çıraq-Günəşli"nin (AÇG) yaxın qonşusu da adlandırmaq olar. Çünki onları cəmi 15 kilometrlik məsafə ayırır.

Xatırladaq ki, Norveçin "Equinor" şirkəti keçən ilədək "Statoyl" adlanırdı və Azərbaycanda 1992-ci ildən fəaliyyət göstərir. Şirkət "Azəri-Çıraq-Günəşli" yataqlarının işlənməsi və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri layihələrində sanballı iştirak payına malikdir. Belə ki, "Equinor" AÇG-də 7,27, BTC-də 8,71 faiz payla iştirak edir. Razılaşdırılmış şərtlər əsasında AÇG layihəsinin müddətinin 2050-ci ilədək artırılması xarici şirkətlərin, o cümlədən "Equinor"un Azərbaycan iqtisadiyyatına inamını bir daha sübut edir və tərəfdaşlığı yeni müstəviyə qaldırır.

Bunu təsdiqləyən digər faktlar "Equinor"un SOCAR-la həyata keçirdiyi daha bir ortaq layihə - "Əşrəfi-Dan Ulduzu-Aypara"dır. Bu layihə çərçivəsində SOCAR-ın "Caspian Geo" şirkəti cari ilin sentyabrından etibarən seysmik kəşfiyyat işlərinə başlayıb. 800 kilometr uzunluğunda xətt üzrə ikiölçülü, 700 kvadratkilometrə yaxın sahədə isə üçölçülü seysmik kəşfiyyat aparılır. Üçölçülü kəşfiyyat işlərinin 80 faizi artıq tamamlanıb və yaxın vaxtlarda sahədə toplanan məlumatların emal və təhlilinə başlanacaq. SOCAR və "Equinor" arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Qarabağ" neft yatağının işlənməsi ilə əlaqədar risk xidməti və "Əşrəfi-Dan Ulduzu-Aypara" sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü sazişləri eyni vaxtda, yəni keçən il mayın 30-da imzalanıb.

"Dan Ulduzu" və "Əşrəfi" perspektiv strukturları Xəzər dənizində, Bakıdan şimal-şərqə doğru 100-110 kilometr məsafədə yerləşir. Burada dənizin dərinliyi 80-180 metrdir. 1980-ci ildə seysmik kəşfiyyat işləri nəticəsində aşkar edilən "Aypara" sahəsi Bakıdan 90 kilometr şimal-şərqdə yerləşir.

Bu günlərdə SOCAR-ın və "Equinor"un rəhbər nümayəndələrinin görüşündə də söhbət məhz adıçəkilən layihələrdən gedib, yaxın vaxtlarda və gələcək perspektivdə görüləcək işlər müəyyənləşdirilib.

***Flora SADIQLI, "Azərbaycan"***

# Azərbaycanın Rusiyanın Həştərxan vilayəti ilə əlaqələri genişlənir

## 2020-ci il üçün əməkdaşlığın inkişafı üzrə Tədbirlər Proqramı imzalanıb

İqtisadiyyat naziri Mikayıl Cabbarov Bakıda səfərdə olan Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Rusiya ilə əlaqələrin strateji müstəvidə dinamik inkişaf etdiyi, dövlət başçılarının ikitərəfli əlaqələrin inkişafına böyük önəm verdiyi vurğulanıb. İqtisadiyyat naziri M.Cabbarov 2019-cu ilin Azərbaycan-Rusiya əməkdaşlığının genişlənməsi baxımından xüsusilə uğurlu olduğunu qeyd edib, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu yaxınlarda Moskvaya səfərinin qarşıdakı dövrdə əlaqələrin intensivləşdirilməsi prosesinə yeni impuls verdiyini diqqətə çatdırıb.



Həştərxan vilayətinin qubernatoru İ.Babuşkin Rusiya regionlarının Azərbaycanla əlaqələrin inkişafında marağını vurğulayıb, Rusiyanın federal subyektləri, xüsusilə Həştərxan vilayəti ilə sıx münasibətlərin qurulmasından məmnunluğunu ifadə edib.

Tərəflər Azərbaycan və Həştərxan vilayəti arasında əməkdaşlığın genişləndirilməsi istiqamətlərini müzakirə edib, qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıblar.

Görüşün sonunda Azərbaycan Respublikası Hökuməti ilə Həştərxan vilayəti (Rusiya Federasiyası) Hökuməti arasında 2020-ci il üçün əməkdaşlığın inkişafı üzrə Tədbirlər Proqramı imzalanıb. Sənədi Azərbaycanın İqtisadiyyat naziri M.Cabbarov və Rusiyanın Həştərxan vilayətinin qubernatoru İ.Babuşkin imzalayıblar.

Sənəd sənaye, kənd təsərrüfatı, qarşılıqlı investisiya qoyuluşu, kiçik və orta sahibkarlıq, mədəniyyət, turizm, gənclər siyasəti, idman və sair sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün növbəti ildə həyata keçiriləcək tədbirləri ehtiva edir.

# Azərbaycanın tarixində daha bir ilk



***Əvvəli 1-ci səh.***

## Xəzərdə ən çox avtomobil və TIR götürən gəmi-bərə

Elə həmin gün Bakı Gəmiqayırma Zavodunda inşa olunan ilk sərnişin, avtomobil və dəmir yolu vaqonları daşıyan "Ro-Pax" tipli gəmi-bərə də suya salındı.

Prezident İlham Əliyev gəmiyə "Azərbaycan" adı verdi və bildirildi ki, bu, Xəzərdə ən çox avtomobil və TIR götürən gəmi olacaq.

Gəmi-bərə 56 vaqon, 50-dən çox TIR daşıyacaq. Gəmi həm də çoxfunksiyalıdır, çünki vaqon, TIR-dan başqa, həm də 100 sərnişin götürəcək.

Gəmi-bərənin gövdə hissəsinin inşası 100 faiz başa çatıb. Qalan tikinti və quraşdırma işləri gəmiqayırma zavodunun yanalma körpüsündə davam etdiriləcək. Nadir dizayna malik "Ro-Pax" tipli gəmi-bərə yüksək texniki göstəricilərinə görə fərqlənir.

Bir sözlə, cənab İlham Əliyevin dəstəyi ilə ərsəyə gələn tanker və gəmi-bərə ilk növbədə Azərbaycanın Xəzərdə aparıcı mövqeyinin qorunub saxlanılmasında, ölkəmizin ərazisindən artan tranzit yüklərin daşınmasında, dənizdə neft-qaz layihələrinin uğurla icrasında mühüm əhəmiyyət kəsb edir. Tankerlərin, gəmilərin artması ilə Azərbaycan donanması daha da güclənəcək və bu, əldə olunan üstünlüyün qorunmasına imkan verəcək. Bütün bunlar Azərbaycanın beynəlxalq nəqliyyat-tranzit imkanlarının daha da genişlənməsinə xidmət edir. Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin yeni inkişaf konsepsiyası əsasında həyata keçirilən belə uğurlu layihələr Azərbaycana böyük iqtisadi dividendlər qazandıracaq.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

## 23 dekabr bələdiyyə seçkiləri günüdür

# Şəffaflıq təmin edilib

***Əvvəli 1-ci səh.***



Hər bir məntəqənin qarşısına və əhalinin gediş-gəlişinin gur olduğu yerlərə təşviqat lövhələri vurulmuşdur.

61 saylı Neftçala Dairə Seçki Komissiyasının sədri Şaiq Məmmədov dedi ki, 41 məntəqənin hamısı rabitə, alternativ işıq mənbəyi və digər avadanlıqla, təşviqat materialları ilə təchiz olunmuşdur.

Yolumuzu 7 saylı seçki məntəqəsindən saldıq. Bu məntəqə rayon Suvarma Sistemləri İdarəsinin inzibati binasında yerləşir. Məntəqənin girişində lövhədə seçici siyahıları asılmışdır. Məntəqə seçki komissiyasının sədri Yalçın Səfərovun sözlərindən aydın oldu ki, məntəqə üzrə 1285 nəfər seçici var. Onlardan 683 nəfəri qadın, 602 nəfəri kişidir. İlk dəfə səs verəcək seçicilərin sayı 24 nəfərdir. Seçicilərdən 23 nəfəri tələbədir. Onlar 23 dekabr günü rayona gələrək səsvermədə iştirak edəcəklər. Bildirişlərin paylanması başa çatdırılmışdır. Məntəqədə veb-kamera quraşdırılmışdır. 35 nəfər seçici isə səhhəti ilə bağlı məntəqəyə gələ bilməyəcəyi barədə məlumat vermişdir. İki nəfərin iştirakı ilə daşınan qutunun onların evlərinə aparılması təmin ediləcəkdir.

***S.CAVADOV, "Azərbaycan"***

# Yevlax seçkilərə hazırdır

Ölkəmizin hər yerində olduğu kimi, Yevlax rayonunda da bələdiyyə seçkilərinə hazırlıq son mərhələyə daxil olub.

48 saylı Dairə Seçki Komissiyasının sədri Yaşar Abbasov söhbət zamanı bildirdi ki, dairənin əhatə etdiyi 31 məntəqənin hamısında 23 dekabrda keçiriləcək bələdiyyə seçkilərinə hərtərəfli hazırlıq görülmüşdür. Seçicilərin ümumi sayı 34899 nəfərdir. Seçici siyahıları diqqətlə hazırlanaraq məntəqələrdə hər kəsin asanlıqla tanış ola biləcəyi lövhələrdən asılmışdır. Şəffaflığı təmin etmək üçün 15 məntəqədə VEB kamera quraşdırılmış və digər zəruri avadanlıqlarla təmin olunmuşdur. Artıq 264 namizəd qeydə alınmışdır. Namizədlərin təbliğat və təşviqat işini səmərəli aparması üçün normal şərait yaradılmışdır.

Dairə Seçki Komissiyasının sədri onu da qeyd etdi ki, seçici siyahılarına daxil edilənlərin 699 nəfəri ilk dəfə səs verəcək. Seçici İsa Kamil oğlu Süleymanovun 18 yaşı dekabrın 23-nə təsadüf etdiyi üçün dairə seçki komissiyası ona hədiyyə verməyi nəzərdə tutub.

***Lazım QULİYEV, "Azərbaycan"***

# Heydər Əliyev Sarayında növbəti "Zima-2019" Beynəlxalq Uşaq Festivalı keçirilib

Dekabrın 14-də Heydər Əliyev Sarayında "Beat Group" şirkətinin təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə növbəti "Zima-2019" Beynəlxalq Uşaq Festivalının qala-konserti keçirilib.

Konsertdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib. AZƏRTAC xəbər verir ki, bu il festivalda iştirak etmək üçün 110 uşaq müraciət edib və təşkilat komitəsi onların arasından 20 ən yaxşı ifaçını seçib. Tədbirin aparıcıları əvvəlki festivallardan da yaxşı tanıdığımız gənc artistlər Rüfət Məmmədov və Suel Heybətova olublar.

Konsertdən əvvəl iştirakçılar qırmızı xalının üzərindən keçiblər və festivalla bağlı təəssüratlarını bölüşüblər. "Səs. Uşaqlar" şousunun altıncı mövsümünün qalibi Ərcan Maksim "Zima" festivalının yüksək səviyyədə təşkilindən heyranlığını ifadə edib, Bakıya gəlmək və Azərbaycan tamaşaçıları qarşısında çıxış etmək imkanı yaratdıqlarına görə təşkilatçılara təşəkkürünü bildirib. Festivalın aparıcısı Rüfət Məmmədov iştirakçıların hamısına uğurlar arzulayaraq deyib ki, tamaşaçıları maraqlı çıxışlar gözləyir. "Zima" festivalı sayəsində çoxlu yeni dostlar tapmaq olar", - deyə o vurğulayıb.

Sonra maraqlı konsert proqramı başlayıb. Xalq artisti Aygün Kazımova və Cəlal Bəşirli birlikdə "Qara gözlər" mahnısını ifa ediblər. Əməkdar artist Sevda Ələkbərzadə isə Fəxriyyə Əliyeva ilə səhnəni paylaşaraq "Qal sənə qurban" mahnısını təqdim ediblər.

Gənc istedadların parlaq ifaları böyük maraqla qarşılanıb. Sarayın səhnəsində, həmçinin Türkiyə, Ukrayna, Gürcüstan, Qazaxıstan, Fransa və Böyük Britaniya təmsilçiləri də çıxış ediblər.

"Zima" festivalı, ilk növbədə, uşaqların musiqi bayramıdır. Hər bir gənc ifaçı böyük səhnəyə çıxmaqla burada artıq qalib olur. Sonda bütün iştirakçılara xüsusi diplomlar və xatirə hədiyyələri təqdim edilib.

"Zima" festivalı ildən-ilə daha parlaq, maraqlı və genişmiqyaslı olur. Festival iştirakçıları artıq müxtəlif nüfuzlu beynəlxalq müsabiqələrdə uğurla iştirak ediblər. Belə ki, "Zima-2017" festivalının bir qrup iştirakçısı "Vo ves qolos" Beynəlxalq Musiqi Televiziya Festivalının qalibi olub. Fərqlənənlər arasında Rüstəm Kərimov da var. O, "San-Remo Junior-2017" uşaq-gənclər musiqi yaradıcılıq festivalının xüsusi mükafatına layiq görülüb. "Zima-2018" festivalının iştirakçısı Aleksandr Zazaraşvili isə Ukraynada "Qolos. Deti" populyar televiziya müsabiqəsinin qalibi olub.






# "Bizim həyət" layihəsi çərçivəsində Nizami rayonunda daha bir həyət abadlaşdırılıb

Dekabrın 16-da IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

Yenilənmiş həyət Nizami rayonu, Məmmədəli Şərifli küçəsi 84, 86, 88, 90, 92 ünvanlarında 1300 nəfər sakinin yaşadığı çoxmərtəbəli yaşayış binalarını əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakıdakı binaların həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü minifutbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda, ərazidə 14 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb, həyətdəki xeyir-şər evi əsaslı təmir olunub və bütün avadanlıqlarla təmin edilib.

Sakinlərin istək və maraqları nəzərə alınaraq həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar və plastik pəncərələr quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 50 ədəd ağac və kollar əkilib, 9 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları və yanğın hidrantları quraşdırılıb.







Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# Türk Dünyası və parlamentarizm

## Son 10 il ərzində türkdilli ölkələr arasında münasibətlər inkişaf edərək keyfiyyətcə yeni mərhələyə keçmişdir

Türkdilli ölkələr arasında çoxtərəfli formatda əlaqələrin qurulmasına ötən əsrin 90-cı illərinin əvvəllərində başlanmışdır. 1992-ci ildə Türkdilli Dövlət Başçılarının Birinci Zirvə Toplantısı keçirildi və bundan sonra ölkələrimizin liderləri müntəzəm olaraq bir araya gəlib əməkdaşlığın əsas prioritetləri və istiqamətlərini müzakirə edirdilər. Lakin o dövrdə zirvə toplantıları daha çox məsləhətləşmələr funksiyasını daşıyırdı və əməkdaşlığın daimi platforması formalaşmamışdı.



İllər keçdikcə ölkələr arasında həm iqtisadi, həm mədəni, həm də siyasi münasibətlər sürətlə inkişaf edirdi və həmin münasibətlərin institusional çərçivəyə salınması zamanın tələbi idi. 1993-cü ildə TÜRKSOY-un yaradılması, 2008-ci ildə TÜRKPA-nın, ardından 2009-cu ildə Türk Şurasının təsisi bu zərurətdən irəli gəlmişdir. Qeyd olunan qurumların yaradılması regionda Türkdilli ölkələrin hərtərəfli qarşılıqlı fəaliyyəti və əməkdaşlığı üçün önəmli təkan vermişdir. Daha sonra Beynəlxalq Türk Akademiyası, Türk Mədəniyyəti və Miras Fondu və Türk Biznes Şurası kimi təşkilatların qurulması müvafiq sahələrdəki əməkdaşlığımızı daha da dərinləşdirmişdir.

Təbii ki, türkdilli ölkələr arasında əməkdaşlıq və əlaqələrin inkişafından danışanda müasir müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu Ulu Öndər Heydər Əliyevin xidmətlərini xüsusilə vurğulamaq lazımdır. Ulu Öndər bütövlükdə türk dünyasının birləşməsi ideyasının gerçəkləşməsi, türkdilli xalqlar arasında birlik və həmrəylik uğrunda qətiyyətli və ardıcıl mübarizə aparmışdır. Heydər Əliyev çağdaş Azərbaycan dövlətinin qurucusu olmaqla yanaşı, müasir Azərbaycan parlamentinin banisi sayılır. Azərbaycana rəhbərlik etdiyi dövrdə, Heydər Əliyev hakimiyyət orqanlarının, o cümlədən parlamentin işini xalqın iqtisadi, mədəni tərəqqisinə, milli dirçəliş siyasətinin reallaşmasına yönəltmişdi. Bu dövrdə Azərbaycan parlamenti Heydər Əliyevin rəhbərliyi ilə ölkədə aparılan quruculuq işlərinin hüquqi bazasının yaradılmasında mühüm rol oynamışdır. Bu baxımdan, Heydər Əliyevin Azərbaycan parlamentarizminin inkişafında müstəsna rolu olmuşdur.

Ümummilli Lider Heydər Əliyevin türk dünyasının qarşılıqlı əlaqələri və inkişafı strategiyasını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam və inkişaf etdirməkdədir. Bu istiqamətdə Prezident İlham Əliyev tərəfindən irəli sürülən və türkdilli ölkələr arasında müxtəlif sahələr üzrə əlaqələrin inkişafına yönəldilmiş layihələrin əhəmiyyətini xüsusilə qeyd etməliyik. TÜRKPA və eyni zamanda Türk Mədəniyyəti və Miras Fondunun qərargahlarının Bakıda yerləşməsi Azərbaycan Prezidenti İlham Əliyevin türk dövlətləri arasındakı münasibətlərin inkişafına olan dəstəyi, diqqət və qayğısının bariz nümunəsidir.

Təbii ki, ölkələr arasında müxtəlif sahələr üzrə qanunların yaxınlaşdırılması və əlaqələrin daha da inkişaf etdirilməsi sahəsində önəmli rolu parlamentlər həyata keçirir. Bu baxımdan, Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) regional əməkdaşlıq platforması kimi Türk əməkdaşlığının parlament səviyyəsində təzahürüdür. TÜRKPA Türk dünyasında çoxtərəfli əməkdaşlığın parlament səviyyəsində tək formasıdır. Təşkilat 21 noyabr 2008-ci ildə İstanbul sazişi ilə təsis edilmişdir. Assambleyanın vəzifəsi və məqsədi türk əməkdaşlığı çərçivəsində parlamentlərarası əlaqələri genişləndirmək, irəli sürülən təşəbbüslərə və öhdəliklərə hüquqi dəstək verməkdir.

Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə TÜRKPA-nın təsisçi üzvləridir. Macarıstan Parlamenti 2014-cü ildən etibarən assambleyanın fəaliyyətində müşahidəçi qismində iştirak edir.

TÜRKPA digər Türkdilli dövlətlər ilə sıx qarşılıqlı əlaqələrin qurulmasında xüsusən maraqlıdır. Belə ki, Türkmənistan və Özbəkistan parlamentləri ilə təmasların qurulması prosesi davam edir. Qeyd etmək lazımdır ki, Özbəkistan da artıq Naxçıvan sazişini imzalamışdır. Məlum olduğu kimi, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Dövlət Başçılarının VII Zirvə görüşü 15 oktyabr 2019-cu il tarixində Azərbaycanda keçirilmişdir və Özbəkistan Prezidenti Şevkat Mirziyoyev Zirvə görüşündə Türk Şurasının tamhüquqlu üzvü kimi iştirak etmişdir. Həm TÜRKPA Ətraf mühit və təbii ehtiyatlar komissiyasının sədri və həm də Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri olaraq inanıram ki, Özbəkistan parlamenti yaxın zamanlarda TÜRKPA-nın fəaliyyətlərində də tamhüquqlu üzv kimi iştirak edəcəkdir.

Türkdilli ölkələr arasında əməkdaşlığın parlament ölçüsü olaraq assambleya üzv ölkələr arasında hüquqi, iqtisadi, sosial-mədəni, ətraf mühit və ortaq maraq doğuran digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün hüquqi zəmin təmin edir. Təşkilatın ana xətti məhz inteqrasiya prosesinin inkişafı üçün qanunvericilik bazasının yaradılmasıdır. Bu kontekstdə TÜRKPA çərçivəsində dörd ixtisaslaşmış komissiya hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyası, sosial, mədəni və humanitar məsələlər komissiyası, iqtisadi əməkdaşlıq komissiyası və ətraf mühit və təbii ehtiyatlar komissiyası fəaliyyət göstərir.

Hazırda TÜRKPA çərçivəsində dörd ölkənin mümkün olan istiqamətlərdə qanunvericilik bazasının yaxınlaşdırılması məsələsi oyrənilir və bu sahədə müəyyən addımlar atılır. TÜRKPA-nın təsis sənədi olan İstanbul sazişi assambleyanın prioritet məsələlərindən biri kimi üzv ölkələrin qanunvericiliklərinin yaxınlaşdırılmasını özündə əks etdirir. Bu məqsədlə TÜRKPA-nın dörd daimi komissiyası fəaliyyət sahələri çərçivəsində model qanun layihələrinin hazırlanması ilə məşğuldur. Bu sahədə, TÜRKPA katibliyi üzv ölkə parlamentlərinin hüquq ekspertləri ilə birgə sıx əməkdaşlıq edir. İndiyə kimi TÜRKPA üzv ölkələrinin milli qanunvericiliklərinin uyğunlaşdırılması üzrə hüquq ekspertlərinin iştirakı ilə 4 seminar keçirilmişdir. Seminarlar zamanı üzv ölkələr üçün model qanun layihələrinin hazırlanması istiqamətində prioritet sahələr müzakirə edilib müəyyənləşdirilmişdir.

Əməkdaşlığın parlament ölçüsü olaraq, TÜRKPA siyasi, iqtisadi, humanitar və digər önəmli sahələrdə dialoqun inkişaf etdirilməsini hər zaman diqqətdə saxlayır. BMT-nin Minillik İnkişaf Hədəflərinin əsasında formalaşdırılmış Davamlı İnkişaf Hədəfləri, başqa sözlə desək, Qlobal Hədəflər dünyanın bütün ölkələri üçün çətir rolunu oynayır. Assambleya öz komissiyalarının fəaliyyətlərində BMT-nin Minillik İnkişaf Hədəflərindən önəmli platforma kimi istifadə edir.

Təsis edildiyi 2014-cü ildən etibarən komissiyamız 5 iclas və komissiya çərçivəsində 3 seminar keçirmişdir. Bütün iclas və seminarların mövzuları BMT-nin Davamlı İnkişaf Hədəflərində əks olunmuş məsələlərə həsr olunmuşdur. İclas və seminarların yekun hesabatları və tövsiyə qərarları qəbul edilərək üzv ölkələrin parlamentlərinə göndərilmişdir.

Cari ilin 14 iyun tarixində, TÜRKPA tərəfindən "Davamlı İnkişaf Məqsədlərinə nail olmasında Türk Dünyası Qadınlarının rolu" mövzusunda qadın parlamentarilərin Beynəlxalq Konfransı Bakı şəhərində keçirilmişdir. Bunlar Davamlı İnkişaf Hədəflərinə nail olunması istiqamətində TÜRKPA fəaliyyətlərindən bəzi nümunələrdir və təşkilat bu məsələlərə çox böyük diqqət yetirir.

TÜRKPA İstanbul anlaşmasına uyğun olaraq parlamentlərarası əməkdaşlığı inkişaf etdirmək və təcrübənin daha geniş mübadiləsini təmin etmək məqsədilə üzv parlamentlərin aparat işçiləri arasında təcrübə mübadilə proqramlarını həyata keçirir. Bu sahədə uğurlu nəticələr əldə edilmişdir.

2010-cu ildən etibarən TÜRKPA-nın təsis etdiyi seçkilər üzrə beynəlxalq müşahidəçilər missiyası üzv ölkələrdə keçirilən prezident və parlament seçkilərini müşahidə edir. TÜRKPA bugünə qədər üzv ölkələrdə keçirilmiş seçkiləri müşahidə etmiş və bəyannamələrini yaymışdır. Assambleyanın seçki müşahidəsi işlərində üzv ölkələrdən olan millət vəkilləri və TÜRKPA katibliyində işləyən diplomatlar iştirak edirlər. Seçki müşahidələri qısa dövrlü müşahidə işləri olub, seçkilərə aid qanuni çərçivə, seçici, partiya və namizədlərin qeydiyyat əməliyyatları, seçki kampaniyaları, səs vermə, sayma və siyahıyaalınma kimi mövzuları əhatə edən bir şəkildə həyata keçirilir. Qeyd etmək olar ki, artıq TÜRKPA-nın müşahidəçilər mandatı beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunan və tanınan missiyaya çevrilmişdir.

TÜRKPA beynəlxalq münasibətlər sistemində aktiv fəaliyyət göstərir. TÜRKPA parlament diplomatiyasının gələcək inkişafına töhfə verməyə və Avrasiya regionunda mövcud parlamentlər və beynəlxalq təşkilatlarla əlaqələrin qurulması və inkişaf etdirilməsində maraqlıdır. Təşkilat beynəlxalq əməkdaşlıq çərçivəsində bir çox uğurlara imza atmışdır. TÜRKPA Beynəlxalq Parlamentlərin Baş Katibləri Assosiasiyasına üzv, 179 ölkəni birləşdirən dünyanın ən böyük beynəlxalq parlament təşkilatı olan Beynəlxalq Parlamentlər Birliyi (IPU), İslam Əməkdaşlığı Təşkilatının Parlamentlər İttifaqı, (İƏT Pİ) Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Konfrans (CICA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası (QDİƏTPA) və Asiya Parlament Assambleyasına (APA) müşahidəçi kimi qəbul olunmuş, ATƏT Parlament Assambleyasında isə qonaq statusunda iştirak etmək hüququna nail olmuşdur. Avropa Parlamenti, MDB Parlamentlərarası Assambleyası, GUAM Parlament Assambleyası kimi qurumlarla da əməkdaşlıq möhkəmləndirilmiş və inkişaf etməkdədir.

TÜRKPA Türkdilli ölkələr arasında iqtisadi, siyasi, mədəni və elmi əməkdaşlıq üzrə birgə model formalaşdırmaq üçün Türk Şurası, Türk Akademiyası və TÜRKSOY-la sıx əməkdaşlıq edir. Bundan başqa, TÜRKPA üzv ölkələrin akademik və təhsil müəssisələri, habelə Türk əməkdaşlığında iştirak edən digər təşkilatlarla səmərəli əməkdaşlıq mexanizmlərinin yaradılmasına və çərçivə əməkdaşlığın qurulmasına önəm verir. Bu istiqamətdə TÜRKPA Türk Akademiyası, Türk Dünyası Bələdiyyələr Birliyi, Manas Qırğız-Türk Universiteti və Ahmet Yassavi Qazax-Türk Universiteti ilə əməkdaşlıq haqqında memorandumlar imzalayıb.

Türkdilli dövlətlər arasında iqtisadiyyat, elm, təhsil, nəqliyyat, gömrük, turizm və digər müxtəlif sahələr üzrə əməkdaşlıq platformaları mövcuddur və hazırda ikitərəfli əməkdaşlıq sahələri genişləndirilir. TÜRKPA öz növbəsində, Türk əməkdaşlığı qurumlarının qeyd olunan bütün sahələrdəki fəaliyyətlərinə, layihə və təşəbbüslərinə qanunvericilik sahəsində dəstəyinin təmin edilməsi öhdəliyini üzərinə götürmüşdür. TÜRKPA bu istiqamətdə Türk əməkdaşlığı qurumlarına hər zaman dəstək verməyə hazırdır.

Sonda qeyd etmək istərdik ki, TÜRKPA qlobal dialoqun parlamentlərarası platformasının möhkəmlənməsinə xüsusi önəm verir. Ənənəvi diplomatiyanı tamamlayan bir amil kimi parlament diplomatiyasından istifadə olunmasının dünyada sülhün, demokratiya və iqtisadi inkişafın bərqərar olmasında xüsusi rol oynayacağına inanır. TÜRKPA-nın Avropa və Asiya beynəlxalq institutları ilə sıx işbirliyi, dünyada çox vacib faktor olan mədəniyyətlər və dinlərarası dialoqun intensivləşməsində və tolerantlıq amilinin ön plana çıxmasında önəmli rol oynamaqdadır.

*İnanırıq ki, TÜRKPA çərçivəsində üzv ölkələr arasında və eyni zamanda Türk işbirliyi qurumları arasındakı əməkdaşlıq regional və beynəlxalq sabitlik, həmçinin təhlükəsizlik məsələlərinə mühüm töhfələr verəcəkdir.*

***Əhliman ƏMİRASLANOV,***
***Milli Məclisin Səhiyyə komitəsinin sədri, TÜRKPA Ətraf mühit və təbii ehtiyatlar komissiyasının sədri, akademik***

# Bakıda TÜRKPA-nın 9-cu plenar iclası keçiriləcək

Dekabrın 18-də Bakıda Milli Məclisin evsahibliyi ilə Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) 9-cu plenar iclası keçiriləcək.

Milli Məclisin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasdan əvvəl Assambleya Şurasının toplantısı olacaq və təşkilata sədrlik Türkiyə Böyük Millət Məclisindən Azərbaycan Respublikasının Milli Məclisinə təhvil veriləcək.

Tədbirdə üzv ölkələrin parlament sədrlərinin rəhbərliyi ilə nümayəndə heyətləri, o cümlədən türk əməkdaşlıq qurumları və beynəlxalq təşkilatların təmsilçiləri iştirak edəcəklər.

Plenar iclasın gündəliyinə TÜRKPA daimi komissiyalarının iclaslarının hesabat məruzələri və tövsiyə qərarları, model qanunların qəbulu, Qazaxıstanda keçirilən növbədənkənar prezident seçkilərinə dair qurumun beynəlxalq müşahidəçi missiyasının hesabatı, eləcə də təşkilatın hüquqi sənədlərinin qəbulu daxildir.

Plenar iclasın yekununda Bakı Bəyannaməsi qəbul ediləcək.

◆ Müəllifi İlham Əliyevdir








# İqtisadi islahatların unikal idarəedilməsi modeli

## İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi müasir çağırışlardan irəli gələn konseptual yanaşma və mexanizmləri uğurla tətbiq edir







**Son illərdə ölkədə iqtisadiyyatın inkişafı, xüsusən qeyri-neft ixrac potensialının artırılması, investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığa dəstəyin gücləndirilməsi ilə bağlı Prezident İlham Əliyev tərəfindən mühüm fərman və sərəncamlar imzalanıb.**

Bütün bunlar dünyada baş verən iqtisadi proseslər fonunda Azərbaycanda başladılan yeni iqtisadi islahatların ilk gündən uğurla həyata keçirilməsini təmin edib. İslahatlar həm də mövcud iqtisadi potensialdan və əlverişli investisiya mühitindən daha səmərəli istifadə, bu sahədə təşviqat və ictimai iştirakçılıq sistemlərinin yaradılması, o cümlədən sahibkarlıq subyektlərinin mütərəqqi elmi-texniki çağırışlardan, stimullaşdırıcı mexanizmlərdən və innovasiyalardan yararlanmaları üçün yeni konseptual yanaşmaların tətbiqi kimi məsələləri də əhatə edib. Prezident İlham Əliyevin 20 aprel 2016-cı il tarixli fərmanı ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) də məhz bu məqsədlə yaradılıb.

### İdarəetmə sacayağı: İslahat-Monitorinq-Kommunikasiya

İİTKM üç əsas funksional istiqaməti əhatə edir: bunlar iqtisadi təhlil, monitorinq və qiymətləndirmə, islahatların və iqtisadi nailiyyətlərin kommunikasiyasıdır.

Prezident İlham Əliyevin tapşırıqları əsasında İİTKM 12 strateji yol xəritəsi, habelə ərzaq təhlükəsizliyi, məşğulluq, rəqəmsal ödənişlər və s. sahələrdə strategiyalar, dövlət proqramları və tədbirlər planlarının monitorinq və qiymətləndirməsini həyata keçirir. Bu əsasda İİTKM-də dövlət sənədlərinin icrası barədə "böyük verilənlər bazası" - "Big Data" yaranır. Öz növbəsində "Big Data"nın emalı əsasında yeni islahatlar barədə təklifləri formalaşdırmaq mümkündür. Təkcə onu qeyd etmək kifayətdir ki, 2016-cı ildə ölkə Prezidentinin tapşırığı əsasında strateji yol xəritələri hazırlananda İİTKM-in platformasında dövlət, özəl, akademiya, beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyətini təmsil edən 400 nəfər ekspert cəmlənmişdi.

Beləliklə, monitorinq və islahat arasında qarşılıqlı təsir mübadiləsi idarəetməni yeni mərhələyə qaldırır: data əsaslı qərar qəbuletmə mexanizmi işləyir. İİTKM-in təqdim etdiyi Azranking.az və Monitoring.az platformaları funksional əlaqələndirilməklə islahatlar və monitorinqin iş axınlarını rəqəmsal olaraq bir-birinə bağlayır: yeni islahat yeni monitorinq və yeni monitorinq yeni islahat deməkdir.

İİTKM-də islahatların "həyat tsikli"nə aid olan bütün mərhələlər tam rəqəmsallaşdırılıb. Bu isə prosesin səmərəliliyini, şəffaflığını, inklüzivliyini və hesabatlılığını təmin edir. Hazırda İİTKM-in balansında olan 40-a yaxın internet resursu güclü kommunikasiya vasitəsi olmaqla islahatların işıqlandırılmasına yardımçı olur.

İslahatların kommunikasiyasında iki vacib hədəf var. Bunun biri mesajları əhali, biznes, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyəti və digər istiqamətlərdə düzgün çatdırmaqdır. İkinci hədəf isə əks-əlaqə qurmaqla islahatların icrası zamanı yaranan fikir və rəyləri yenidən "islahat gündəliyi"nin formalaşmasında istifadə etməkdir. Beləliklə, İİTKM-də idarəetmə sacayağı yaranıb: İslahat-Monitorinq-Kommunikasiya. Bu sacayağın funksionallığını artırmaq üçün İİTKM-in təqdim etdiyi institutlar vacib rol oynayır: Azexport.az, Rəqəmsal Ticarət Qovşağı, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi, Azranking.az, Monitoring.az, Enterpriseazerbaijan.com və Azerp.az.

### İslahatların "beyin mərkəzi"

Aparılan iqtisadi islahatların əhatə dairəsinin genişləndirilməsini və bu sahədə işlərin səmərəli əlaqələndirilməsini təmin edən, rəqabət qabiliyyətli sosial bazar modelinin qurulması istiqamətində iqtisadi islahatlara töhfə verən İİTKM ölkənin dayanıqlı iqtisadi inkişafının təmin edilməsi istiqamətində makro və mikroiqtisadi səviyyədə təhlil və tədqiqatlar aparır. Qurum, həmçinin analitik məlumatlar əsasında iqtisadi islahatların həyata keçirilməsi üçün təkliflər, habelə orta və uzunmüddətli dövr üçün proqnozlar hazırlayır, dövlət orqanlarını və qurumlarını həmin proqnozlarla təmin edir.

İİTKM-in 20-ə qədər dövlət proqramı, strategiya, tədbirlər planı və strateji yol xəritələri üzrə həyata keçirdiyi monitorinq və qiymətləndirmə çərçivəsində hər bir istiqamətdə işçi qruplar fəaliyyət göstərir ki, bu da 300 nəfərə qədər şəxsi əhatə edir. İİTKM həm də Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə komissiyanın 19 işçi qrupunun və katibliyinin müzakirələr apardığı platformadır. Bu platformada 300 nəfər dövlət, özəl, akademiya, vətəndaş cəmiyyəti və beynəlxalq təşkilatların nümayəndələri cəmləniblər. Təkcə bu iki platformada 600 nəfərə yaxın şəxs islahatların "həyat tsikli"nə aid bütün mərhələlərdə dövlət-özəl əməkdaşlığı və dialoqu formatında fəaliyyət göstərirlər.

### "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi

İİTKM-in fəaliyyəti ilə daha yaxından tanış olmaq üçün bu günlərdə mərkəzə baş çəkdik. Diqqətimizi ilk çəkən İİTKM-in "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi oldu. Öyrənirik ki, ölkəmizdə qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsini təmin etmək istiqamətində görülən işlərdən biri "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin yaradılmasıdır. Mərkəz Azərbaycan Prezidentinin 22 fevral 2017-ci il tarixli "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı əsasında yaradılıb. Missiyası isə ixrac fəaliyyəti ilə məşğul olan sahibkarlara kömək etmək, onların işini asanlaşdırmaqdır.

Məlum olduğu kimi, sahibkarlıq fəaliyyətinə təsir edən parametrlərdən biri zaman və pul məsrəfidir. Elə Dünya Bankının "Doing Business" hesabatında "Sərhəddə ticarət" indikatoruna nəzər salsaq, görərik ki, sözügedən indikatorun qiymətləndirilməsi sərf edilən vaxt və xərclənən pulun miqdarına görə dəyişir. Yəni sahibkar ixrac-idxal əməliyyatlarına nə qədər zaman və maddiyyat sərf edərsə, bu həmin ölkənin hesabatdakı mövqeyinə təsir göstərəcək. Buna görə də beynəlxalq indeksin təcrübəsinə dayanaraq prosedurların azaldılması istiqamətində ölkəmizdə "Bir Pəncərə" sistemi tətbiq edilir. Sistemin əsas mahiyyəti və fəlsəfəsi dövlət-özəl münasibətlərində çevikliyin, intensivliyin və şəffaflığın təmin edilməsidir.

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzində altı dövlət qurumunun xidməti fəaliyyət göstərir. İxracatçı sahibkarlar tələb olunan bütün bu sertifikatları vahid "Bir Pəncərə" Mərkəzindən daha tez, səmərəli və effektiv şəkildə, əlavə yol və vaxt resursu sərf etmədən əldə edə bilir. Bu da öz növbəsində sahibkarın ixrac prosedurunu asanlaşdırır. "Bir Pəncərə"nin ixracatçı sahibkarlara göstərdiyi xidmətlər bununla bitmir. Bütün bunlarla yanaşı, mərkəz yerli sahibkarlara konsultasiyaların verilməsi, biznes ideyasına malik şəxslərə biznes planın yazılması, ixrac subsidiyaları, gömrük bəyannamələrinin real vaxt rejimində doldurulması ilə bağlı dəstək göstərir. Mərkəz sahibkarlara birbaşa ünsiyyətlə yanaşı, onlayn rejimdə də xidmət göstərir.

Beləliklə, qısa müddətdir fəaliyyətinə baxmayaraq təcrübə göstərir ki, icazə və sertifikatların verilməsində zamanın azaldılması, daha az maddi məsrəf edilməsinə təsir göstərir, biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən, müqavilələrin elektron formada tərtibi və imzalanmasını, real vaxt rejimində transsərhəd elektron xidmətlərinin həyata keçirilməsini reallaşdırır. İntensiv və çeviklik yalnız daha az vaxt sərf etməklə sahibkarın işinə dəstək verir, onun maddi xərclərini düzgün tənzimləyir və gələcək fəaliyyətini stimullaşdırır. Ona görə də "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi bu gün ölkənin qeyri-neft sektorunun ixracının inkişafında əhəmiyyətli rol oynayır.

### "Enterprise Azerbaijan" - virtual inkubasiya və akselerasiya platforması

İİTKM-in fəaliyyətinin istiqamətlərindən biri də müasir innovasiyalardan yararlanmaqla bu sahədə dövlət siyasətinin daha böyük uğur qazanmasına nail olmaqdır. Buna görə Azərbaycanda biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, kiçik və orta sahibkarlığın inkişafının təmin edilməsi məqsədilə Prezidentin fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"nin "İnvestisiya məlumat bankının yaradılması və mütəmadi təhlillər nəticəsində yenilənməsi" tədbirinin icrası ilə əlaqədar olaraq İİTKM tərəfindən "EnterpriseAzerbaijan.com" internet portalı yaradılıb. "EnterpriseAzerbaijan.com"-un beynəlxalq əməkdaşlığı gücləndirmək üçün ilk anlaşma memorandumu bu sahədə dünya liderlərindən olan "Enterprise Estonia" ilə olmuşdur.

Portalın missiyası hüquqi və fiziki şəxslər tərəfindən hazırlanan investisiya layihələri, aktivlər, təbii resurslar və investisiya imkanları haqqında məlumatların yerli və xarici investorlara təqdim edilməsidir. "EnterpriseAzerbaijan" ideya və layihə həyata keçirmək istəyən müəllif və təşəbbüskarları ilə investisiya imkanları axtarışında olan investorları bir araya gətirən davamlı yenilənən, istifadəyə rahat, təhlükəsiz, əlçatan, sürətli və geniş əhatə dairəsi olan bir platformadır. "EnterpriseAzerbaijan.com" portalı həm də dünyada məşhur, geniş kütləyə malik olan bir çox portallara inteqrasiya olunur və dünya maliyyə bazarlarına çıxmaq imkanı yaradır.

Azərbaycanda ilk dəfə məhz bu portalda fəaliyyət istiqaməti üzrə geoiqtisadi xəritə yaradılıb. Portalda yerləşdirilən bu xəritədə nəqliyyat infrastrukturu, sənaye parkları, texnoparklar, biznes inkubatorlar, xidmət sektoru, elm və təhsil müəssisələri, təbii sərvətlər, şirkətlər və s. daxil olmaqla 1200 əsas obyekt, həmçinin inzibati və iqtisadi rayonlar haqda Azərbaycan, ingilis və rus dilində olmaqla, 3 dildə məlumat yerləşdirilib.

İİTKM-də olanda öyrəndik ki, "EnterpriseAzerbaijan.com" Azərbaycanda ilk dəfə olaraq Bank of Americada Kickstarter hesabı açıb. Bu hesab vasitəsilə "EnterpriseAzerbaijan.com" bir neçə biznes layihəsini (startapı) Kickstarterdə yerləşdirib investisiya cəlb etməyə başlayıb. Hazırda "EnterpriseAzerbaijan.com"a toplanan və kənarda olan startapları Kickstarterə yerləşdirmək üçün tədqiqatlar aparılır. Azərbaycan Beynəlxalq Bankı da Azərbaycan startaplarının Kickstarterdə yerləşdirilməsi üçün "EnterpriseAzerbaijan.com"a dəstək verir.

"EnterpriseAzerbaijan.com" xüsusilə gənc startapçıları dəstəkləmək üçün 15 universitetdə təkcə bu il Vergilər Nazirliyi və Azərbaycan Sahibkarlar Konfederasiyası ilə birlikdə 2000-dən çox tələbə ilə "Startapa necə başlamalı?" mövzusunda seminarlar keçirmişdir.

### Azexport.az - "Made in Azerbaijan"ın dünyaya açılan pəncərəsi

Hazırda Azərbaycanda elektron ticarətin lideri kimi "Azexport.az" çıxış edir. Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən böyük layihələrdən olan portal Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında" sərəncamı əsasında 2016-cı ildə yaradılıb.

Portal Azərbaycan istehsalı olan rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların xarici bazarlarda "Made in Azerbaijan" brendi adı altında təşviqinə dəstək verir. Digər tərəfdən "Azexport" ölkədə biznes mühitinin yaxşılaşdırılması üçün ixracatçı sahibkarlara nəqliyyat, logistika, ödəniş və sertifikatlaşdırma sahəsində dövlət dəstəyi göstərir.

Bu mənada portal yerli məhsullar haqqında məlumatların təqdim edilməsi, onların daxili və xarici bazarlarda satışı üçün əlverişli platformadır. Ən əsası "Azexport" həm tələbin təklifi, həm də təklifin tələbi formalaşdırdığı unikal imkanlar yaradan platformadır.

"Azexport" portalı "Made in Azerbaijan" məhsullarının xarici bazarlarda elektron ticarət platformaları üzərindən təşviqinin aparılması üçün dünyanın müxtəlif istiqamətlərində fəaliyyət göstərən ən məşhur ticarət platformalarına inteqrasiya olunub. Belə ki, "amazon.com", "alibaba.com", "all.biz", "Go4worldbusiness.com" kimi bir çox geniş auditoriyaya malik olan portallara inteqrasiya olunması Azərbaycan istehsalı olan məhsulların dünya bazarına çıxış imkanlarını artırır, onların satış əhatəsini genişləndirir.

Azərbaycanın yaradıcı sənaye sahəsində mövcud potensialını nəzərə alsaq, perspektivdə bu sektor ölkəyə ən azı 1-1,5 milyard dollar əlavə gəlir gətirə bilər. Bu məqsədlə kreativ məhsulların xarici bazarlarda təşviqi məqsədilə "Azexport.az" portalı sınaqdan keçmiş modelini və mövcud imkanlarını təklif edir. Bunun üçün bu sahədə ixtisaslaşan "Etsy", "Kickstarter" və "Amazon Kindle onlayn portalları və "Sothebys" auksion evi ilə əməkdaşlıq qurulub. "Azexport.az" bu il ərzində "Amazon" onlayn platformasında elektron kitabların satışı istiqamətində uğura nail olub. Belə ki, ümumilikdə "Azexport.az" və "Amazon" portallarında Prezident yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun "Fundamentals of İnclusive Development Management" adlı elektron kitabının üç ay ərzində 300-dən artıq nüsxəsi satılıb. Növbəti mərhələdə dizayn həlləri, əl işləri, milli suvenirlər, əsərlər, şeirlər, rəsmlər, kreativ video oyunlar, musiqilər, bəstəkarlıq və potensial ixrac imkanı olan digər yaradıcılıq məhsullarının "Etsy", "Apple" "Music", "Itunes", "Google Play", "Kickstarter", "Sothebys" və "Amazon Kindle" kimi platformalara yerləşdirilməsi nəzərdə tutulub.

Beləliklə, Azərbaycanda istehsal olunan məhsulların vahid məlumat bazası formalaşıb və bu gün yerli sahibkarın "Azexport.az" vasitəsilə öz məhsullarını 200-dən artıq ölkədə tanıtmaq imkanı var. "Azexport.az"ın fəaliyyət göstərdiyi 3 il ərzində Azərbaycan məhsullarının beynəlxalq onlayn platformalarda mövcudluğu 300 dəfə artıb. Fəaliyyətə başladığı 2017-ci ilin yanvar ayından etibarən "Azexport.az" portalına dünyanın 111-dən artıq ölkəsindən müxtəlif (sənaye, qida, tekstil, kənd təsərrüfatı və s.) məhsullar üzrə 1 milyard 388,4 milyon ABŞ dollar həcmində ixrac sifarişləri daxil olub.

Mərkəzdə onu da öyrəndik ki, hazırda bir sıra ölkələr "Azexport.az" modelinə bənzər modellər tətbiq etməyə çalışırlar. Hətta Dünya SME Forumu və İİTKM arasında imzalanmış anlaşma memorandumunda "Azexport.az" təcrübəsinin yayılması da nəzərdə tutulmuşdur.

### Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı

"Azexport.az" portalının əsas keyfiyyət göstəricilərindən biri də İlham Əliyevin fərmanı ilə burada sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycanda vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibinə və imzalanmasına, habelə real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə imkan verən "Azərbaycan Rəqəmsal Ticarət Qovşağı" bölməsinin yaradılmasıdır. Qeyd edək ki, dördüncü sənaye inqilabının çağırışlarına uyğun olaraq Azərbaycan Böyük Britaniyadan sonra Rəqəmsal Ticarət Qovşağı (RTQ) yaradan ikinci ölkədir.

Ölkələr arasında rəqabətin gücləndiyi dövrdə belə layihənin həyata keçirilməsi olduqca mükəmməl düşünülmüş iqtisadi addımlardan biridir. Çünki bu layihə ilə Azərbaycan regionda qeyri-neft sektoru üzrə ən rahat investisiya mühiti yaradıb və xarici investorlar üçün olduqca cəlbedici ölkəyə çevrilib. RTQ qeyri-rezident investorların mövcud regionda investisiya layihələrini ən rahat və təhlükəsiz şəkildə həyata keçirmələri üçün unikal imkanlar yaradır.

Azərbaycan RTQ vasitəsilə dünyada ilk mobil rezidentlik və Estoniyadan sonra ikinci elektron rezidentlik təqdim edən ölkədir. İlk elektron rezidentlik Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Kestutis Jankauskasa təqdim edilib. RTQ-nin yenilikləri bununla bitmir, dünya tarixində ilk dəfə qeyri-rezidentə mobil imza - ASAN imzanı məhz RTQ ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman-əl Tüveycriyə təqdim edib.

RTQ-nin təqdim etdiyi m-rezidentlik və e-rezidentlik vasitəsilə sənədləşmə ilə əlaqədar aparılan bütün proseslər çox sadə və bir o qədər təhlükəsizdir. Elektron və mobil rezidentliyin xarici investor üçün üstünlüyü odur ki, ölkəmizdə biznes fəaliyyəti ilə məşğul olmaq istəyən qeyri-rezidentlər ölkəyə daxil olmadan, sərhədi keçmədən dth.az saytında qısa müddətdə qeydiyyatdan keçə bilər.

RTQ, eyni zamanda yerli sahibkarlar üçün də böyük imkanlar yaradır. Belə ki, ixrac prosedurlarının daha sadə, şəffaf və sürətli həyata keçirilməsi məqsədilə ixrac zamanı tələb olunan mənşə sertifikatı, fitosanitar, keyfiyyət, baytarlıq sertifikatı, gömrük bəyannaməsi, sərbəst satış sertifikatı kimi sertifikatlarını onlayn formada və yalnız bir müraciətlə "Vahid İxrac Ərizəsi" vasitəsilə təqdim edir. Bu da yerli ixracatçılara vaxta və xərclərə qənaət etməyə şərait yaradır. RTQ yerli sahibkarlar üçün yeni bazarlar da açmaqdadır. Belə ki, insan orqanizmi ilə birbaşa təmasda olan qida, kosmetika, tekstil, tibbi cihazlar, gigiyenik vasitələr və s. məhsulların ixracı zamanı tələb olunan Sərbəst Satış Sertifikatı Azərbaycanda ilk dəfə olaraq RTQ vasitəsilə yerli sahibkarlara təqdim olunur. Azərbaycan MDB məkanında bu tip sertifikatı təqdim edən üçüncü ölkədir.

RTQ-nın təklif etdiyi digər xidmətlər sırasında qeyri-rezidentlər üçün olan e-company vasitəsilə sahibkar onlayn şəkildə öz şirkətini qura bilər. E-bank xidməti vasitəsilə Azərbaycanda ilk dəfə banka getmədən, məsafədən bank hesabının açılması xidməti təqdim edilib. E-wallet xidməti vasitəsilə elektron pul kisəsi ilə bütün ödənişlər portal üzərindən həyata keçirilə bilər. Bununla da sahibkar öz vaxtına qənaət edə bilər. E-document vasitəsilə isə şirkətin bütün elektron sənəd dövriyyəsi həyata keçirilir. Bundan başqa, transsərhəd əməliyyatları, elektron sənəd dövriyyəsi, qarşılıqlı tanınma, gömrük bəyannamələrinin doldurulması və sairə kimi xidmətləri də RTQ istifadəçilərə təqdim edir.

Ümumilikdə RTQ "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi və "Azexport.az" portalı ilə birgə ekosistem yaradaraq ixracatın təşviqinə xidmət göstərir.

### "Monitoring.az" - monitorinq və qiymətləndirmədə rəqəmsal transformasiya

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin BP şirkəti ilə birgə hazırladığı "monitoring.az" portalının yaradılmasının əsas məqsədi strateji yol xəritələrinin və digər dövlət proqramlarının monitorinqi və qiymətləndirilməsində qurumlar arasında olan "kommunikasiya məsafəsini" azaltmaq, monitorinq və qiymətləndirmə institutunu rəqəmsallaşdırmaq, sadələşdirmək və şəffaflaşdırmaqdır.

Azərbaycanda elektron hökumət və elektron məhkəmə ilə yanaşı, həm də elektron monitorinq sisteminin yaradılması çevik və səmərəli dövlət idarəetməsini təmin edir. İİTKM strateji yol xəritələrində nəzərdə tutulan fəaliyyətlərlə bağlı monitorinq, qiymətləndirmə və kommunikasiya tədbirlərini, həmçinin öz səlahiyyətləri çərçivəsində dövlət qurumlarının sifarişi əsasında sənaye parkları, məhəllələri və aqroparklarda həyata keçirilən fəaliyyətlərin, habelə iqtisadi yönümlü dövlət proqramlarının monitorinqini və qiymətləndirilməsini həyata keçirir. "Monitoring.az" portalı dövlət strategiyalarının, proqramların, tədbirlər planlarının monitorinqi və qiymətləndirilməsi nəticəsində Böyük Verilənlər (Big Data) bazası yaratmağa imkan yaradır.

"Azranking.az" portalı isə Verilənlər Bazasından istifadə etməklə islahatların generasiyasını təmin edir və islahatlar da yenidən monitorinq olunur. "Monitoring.az" və "Azranking.az" portalları arasında funksional əlaqə "müdrik çevrə" yaradır.

Beləliklə, mərkəzdəki müşahidələrimiz göstərdi ki, İlham Əliyevin rəhbərliyilə Azərbaycanın özünəməxsus iqtisadi islahatların idarəedilməsi modeli yaradılıb. Cəmi 3 ildir fəaliyyət göstərən İİTKM müasir çağırışlardan irəli gələn konseptual yanaşma və mexanizmləri uğurla tətbiq edir.

### "Azranking.az" - islahatların rəqəmsal generasiyası

İİTKM-in fəaliyyətini təmin etdiyi "Dövlət-Biznes Dialoqu Platforması və Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya"nın internet Portalı - "Azranking.az" vasitəsilə idarəetmə elektron qaydada həyata keçirilir. Komissiyanın işçi qruplarının fəaliyyətinin əlaqələndirilməsi, iclas və görüşlərin təşkil edilməsi, daxili məlumatların və müvafiq sənədlərin mübadiləsi də yeni internet platforması üzərindən reallaşacaq. Bundan başqa, Azərbaycan və ingilis dillərində fəaliyyət göstərən "Azranking.az" portalında beynəlxalq reytinqlər üzrə bütün məlumatlar, metodologiya, qiymətləndirmə və eyni zamanda reytinq üzrə qiymətləndirilən bütün ölkələrin Azərbaycan ilə illər üzrə müqayisəli təhlil sistemi və digər funksiyalar mövcuddur. Portal komissiyanın iclaslarında baxılan məsələlər və qəbul edilən qərarlar barədə məlumatların ictimaiyyət, eləcə də, kütləvi informasiya vasitələrində şəffaf və əlçatan olaraq yayılmasını təmin etmək məqsədi daşıyır.

### İslahatların kommunikasiyası

İİTKM, həmçinin Azərbaycanda aparılan islahat prosesinin yerli və beynəlxalq səviyyədə geniş kommunikasiyasını həyata keçirir. Mərkəz internet resursları üzərindən aktiv fəaliyyət göstərir, sosial şəbəkələrdə 40-a qədər resurs üzərindən müntəzəm olaraq islahat prosesinin kommunikasiyasını həyata keçirir. Mərkəzin əməkdaşları mütəmadi olaraq islahatların işıqlandırılması məqsədilə mediada analitik şərhlərlə çıxış edir, müxtəlif teleradio proqramlarına və debatlara qatılırlar. Azərbaycanda aparılan islahat prosesi ilə bağlı həm də beynəlxalq müstəvidə təşviqat işi aparılır. Belə ki, mərkəzin əməkdaşlarının nüfuzlu "Forbes", "Reuters", "BBC", "Emerging Europe", "Digital Age", "moscow-baku.ru", "Milliyet", "Hürriyet", "Daily Sabah" və s. kimi nəşrlərdə müsahibə və məqalələri dərc olunub. Mərkəz aylıq olaraq ixrac icmalı, islahat icmalı və video icmalı hazırlayır. İslahat prosesinin statistik infoqrafik təsviri, video formatda təqdimatı və elektron kütləvi informasiya vasitələrində də bu məlumatların statistik infoqrafikalarla geniş işıqlandırılması məlumatlılığın artmasına xüsusi töhfə verir. Prezidentin fərman və sərəncamlarına, digər vacib islahat tədbirlərinə aid sosial çarxlar daimi olaraq TV kanallarda yayımlanır. İİTKM iqtisadi sahədə fəaliyyət göstərən TV layihələrin yaradılmasında və fəaliyyətində də xüsusi rol oynayır. Mərkəz Dünya Bankı, SİGMA, Avropa İttifaqı kimi nüfuzlu təşkilatlarla onlarla birgə tədbirlər və görüşlər keçirir. Həmçinin beynəlxalq nüfuzlu xarici ekspertlərlə birlikdə müxtəlif mövzularda təlimlər təşkil olunur və iştirakçılara sertifikatlar təqdim olunur. İİTKM-in əməkdaşları ABŞ, Böyük Britaniya, Fransa, Hindistan, Yaponiya, İtaliya, Estoniya, Tailand, Türkiyə və başqa ölkələrə səfər edərək iqtisadi islahatlar barədə məlumatlar təqdim ediblər. Bu il ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Dünya Bankı ilə Beynəlxalq Valyuta Fondunun illik toplantısında Azərbaycanda iqtisadi islahatlara dair xüsusi tədbir keçirilib. Toplantıda "Doing Business islahatları: Azərbaycanda inklüziv və davamlı iqtisadi inkişaf" mövzusunda təqdimat nümayiş olunub.

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu və sistemli islahatlar çərçivəsində İİTKM-in yaranması və özünün də bu islahat prosesinə qoşulması onu göstərir ki, Azərbaycanda dövlət idarəetməsinin səmərəliliyi təmin olunmuşdur. İİTKM-in uğurlarının da səbəbi məhz effektiv menecment, rəqəmsal həllər, insan kapitalı və dövlətçiliyə bağlılıqdır. Dəhlizlərdə, iş otaqlarında və iclas zallarında rastlaşdığımız əməkdaşların işgüzarlığı və ruh yüksəkliyi qaynar iş həyatını göstərirdi. Bu gün İİTKM-də nüfuzlu xarici universitetləri bitirən məzunlar, elmlər və fəlsəfə doktorları, magistrlər peşəkarlıq və vətənpərvərliyi özlərində birləşdirərək İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlara öz töhfələrini verməyə çalışırlar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# İlahiyyat İnstitutunda "Heydər Əliyev: dəyərlərimizin xilaskarı" sənədli filmi nümayiş olunub

Azərbaycan İlahiyyat İnstitutunun tələbələri (AİI) "Heydər Əliyev: dəyərlərimizin xilaskarı" sənədli filmini izləyiblər.





Sənədli film Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin 50 illiyi münasibətilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə hazırlanıb.

Ulu Öndər Heydər Əliyevin Azərbaycanın milli-mənəvi dəyərlərinə yüksək həssaslıqla yanaşmasından, bu sahədə göstərdiyi misilsiz xidmətlərdən bəhs edən sənədli filmdə keçmiş sovet dövründə və müstəqillik illərində milli və dini dəyərlərimizin, eləcə də adət-ənənələrimizin qorunması, xalq arasında təbliği və təşviqi istiqamətində görülən işlər xronoloji ardıcıllıqla təqdim olunur.

Sənədli filmdə ölkəmizdə 1969-cu ilin 14 iyulunadək olan dövrdə ictimai-siyasi vəziyyət, milli-mənəvi dəyərlərimizin məhv edilməsi istiqamətində edilən hücumlar təsvir olunur və Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra baş vermiş dəyişikliklərdən danışılır.

"Heydər Əliyev: dəyərlərimizin xilaskarı" sənədli filmində Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə, Xalq şairi Nəriman Həsənzadə, Xalq artistləri Əlibaba Məmmədov və Mənsum İbrahimov Ulu Öndər haqqında indiyədək səslənməyən xatirələrini bölüşüblər. Sənədli filmdə müxtəlif dövrləri özündə əks etdirən videoxronikalardan və arxiv materiallarından istifadə olunub.

Qeyd edək ki, AİI-də təşkil edilən tədbirlərin məqsədi tələbələrin dünyagörüşünün formalaşdırılmasına, intellektual səviyyəsinin yüksəldilməsinə, mənəvi dünyasının zənginləşdirilməsinə, vətənpərvərlik hisslərinin gücləndirilməsinə, mütaliə, sosial məsuliyyət vərdişlərinin aşılanmasına, o cümlədən fərdi özünüifadə bacarıqlarının inkişaf etdirilməsinə töhfə verməkdir.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Bakıda Qətərin milli bayramı qeyd edilib

Qətərin milli bayramı ilə əlaqədar bu ölkənin Azərbaycandakı səfirliyi dekabrın 16-da rəsmi qəbul təşkil edib.

AZƏRTAC xəbər verir ki, rəsmi qəbulda əvvəlcə hər iki ölkənin Dövlət himnləri səsləndirilib.



Qətərin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Feysal bin Abdullah Həməd Abdullah Al Hinzab tədbirdə çıxış edərək ölkəsinin keçdiyi inkişaf yolundan danışıb. Bildirib ki, qısa müddət ərzində Qətər regional və beynəlxalq müstəvidə özünə layiqli yer tutub.

Ölkələrimiz arasında əlaqələrə toxunan diplomat Azərbaycan-Qətər münasibətlərinin bütün sahələrdə yüksələn xətlə inkişaf etdiyini söyləyib. Bu il diplomatik əlaqələrimizin qurulmasının 25 ili tamam olur. Dövlət başçılarımızın qarşılıqlı hörmətə, humanitar və əxlaqi prinsiplərə söykənən münasibətləri dövlətlərarası əlaqələrə də müsbət təsir göstərir.

Tədbirdə çıxış edən Azərbaycanın Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov əlamətdar gün münasibətilə Qətər xalqını Prezident İlham Əliyevin adından təbrik edib. Nazir bildirib ki, Qətər dövləti iqtisadiyyat, mədəniyyət və digər sahələrdə böyük uğurlara nail olub. Azərbaycan və Qətər beynəlxalq təşkilatlar çərçivəsində də sıx əməkdaşlıq edirlər. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Qətər həmişə ölkəmizin haqlı mövqeyini müdafiə edib.

İkitərəfli əlaqələrimizə toxunan nazir deyib ki, qarşılıqlı rəsmi səfərlər iki ölkə arasında münasibətlərin inkişafı baxımından əhəmiyyətli rol oynayır. Bu səfərlər zamanı əldə edilmiş razılaşmalar ölkələrimiz arasındakı münasibətlərə müsbət təsir göstərir. Nazir Kəmaləddin Heydərov qeyd edib ki, ölkələrimiz arasında zəruri müqavilə-hüquq bazasının yaradılması, o cümlədən 2016-cı ildə dövlət başçılarımızın müvafiq qərarı ilə fəaliyyətə başlamış Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiya uğurlu əməkdaşlıq üçün mühüm platforma yaradıb.

Qəbulda rəsmi şəxslər, Milli Məclisin deputatları, səfirlər, jurnalistlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

# Azərbaycanın üç tarixi məkanı İSESKO-nun İslam İrsi Siyahısına salınıb

Azərbaycanın üç tarixi məkanı İSESKO-nun İslam İrsi Siyahısına daxil edilib.

AZƏRTAC xəbər verir ki, Mərakeş Krallığının paytaxtı ər-Rabatda keçirilmiş İslam Dünyası İrs Komitəsinin növbədənkənar iclasının yekun sənədinə əsasən, ölkəmizin İçərişəhər (Qız qalası və Şirvanşahlar saray kompleksi ilə birlikdə), Şəkinin tarixi mərkəzi (Xan sarayı ilə birlikdə) və Qobustan qayaüstü rəsmləri bu siyahıya salınıb. Ümumiyyətlə, 117 tarixi və mədəniyyət obyekti İslam Dünyası İrs Siyahısına, Yəməndə yerləşən 3 abidə isə islam ölkələrində dağılmaq təhlükəsi olan abidələr siyahısına salınıb.

Qeyd edək ki, İSESKO-nun irs və mədəniyyətlə bağlı yeni strategiyası, həmçinin islam dünyasında mədəni və tarixi irsin qeydə alınması və qorunması sahəsində fəaliyyətin gücləndirilməsini hədəfləyir.

Şirməmməd Hüseynov - 95

# Milli mətbuatımızın unudulmaz patriarxı

145 yaşını haqlamaqda olan Azərbaycan mediası bütün mərhələlərində xalqa, milli jurnalistikamıza, tariximizə baş ucalığı gətirən görkəmli simalar yetişdirib. Bizlər bu uzun, keşməkeşli yolun hər dönəmində misilsiz xidmətləri olan isimləri yaxşı tanıyırıq. Hesab edirəm ki, milli mətbuatımızın banisi Həsən bəy Zərdabidən tutmuş günümüzədək müxtəlif mərhələlərdə Cəlil Məmmədquluzadə, Məmmədağa Şaxtaxtinski, Üzeyir Hacıbəyli... kimi silinməz izləri qalan dühaları daim xatırlamaq hamımızın borcudur.



Sevimli müəllimimiz Şirməmməd ömrünün 60 ildən çoxunu mətbu zirvələrin daha mükəmməl tanıdılması naminə arxivlərdə keçirən, onların bənzərsiz irsinə ikinci həyat verən mətbuat tədqiqatçılarından olub. Deyirəm nə yaxşı ki, tale bu zaman kəsiyində onu xalqımıza bəxş etmişdi. Yoxsa hələ də həmin dövrün zirvəsinə kim haqq edir sualı uzun müddət cavabsız qalacaqdı.

Əlbəttə, zirvə o zaman daha möhtəşəm görünür ki, sağında-solunda əzəmətli müttəfiqləri dayansın. Ötən əsrin ikinci yarısından bəri mediamız kimləri itirmədi, onların yerləri boş görünəndə Nəsir İmanquliyev, Nurəddin Babayev, Nəriman Zeynalov, Qulu Xəlilov sinələrini irəli verdilər. Yazdılar, yaratdılar, mətbuat tarixini, nəzəriyyəsini tədris etdilər. Publisistik məqalələri ilə nədən, necə yazmağın praktik nümunələrini ərsəyə gətirdilər. Həmin illərdə mətbuatımız ona görə indikindən daha cazibədar görünürdü ki, sükanı arxasında adlarını sadaladığım insanlar dayanmışdılar. Onların mühazirələrini dinləmək üçün nəzərə çarpmadan auditoriyalarda görünməyi təhsil aldığım Filologiya fakültəsinin tələbələri zirəkliyin bir forması olaraq dəyərləndirirdilər. Şirməmməd müəllim tək-tək pedaqoqlardan idi ki, xəfif təbəssümü ilə bunu görməzliyə vururdu. İkinci kursda Ulu Öndərimiz Heydər Əliyevin sayəsində Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsində təhsilimi davam etdirmək üçün göndəriləndə arzu və inadıma dəstək verən Şirməmməd müəllimin xeyirxah məsləhətlərini minnətdarlıqla xatırlayıram.

Ola bilsin kimsə Şirməmməd müəllimin ünvanına işlətdiyim jurnalistikamızda son 50 ilin zirvəsi ifadəsini bir qədər mübahisəli saysın. İstərdim sözlərimi konkret məqamlarla əsaslandırım.

Jurnalist simasını, ilk növbədə, səciyyələndirən yaradıcılığı, yazılarıdır. O heç vaxt janrlardan, üslubiyyatdan dərs demədi. Fəqət irsi nədən, necə yazmağın gör-götür nümunələri oldu. Ustadın şirin ləhcəsi, zəngin lüğət fondu fikir və məqsədin çatdırılmasının necə geniş imkanlara malik olduğuna diqqət çəkirdi. İş qalırdı bundan yerli-yerində faydalanmaq bacarığına.

Şirməmməd müəllim yazılarında fərdlərin yox, bütövlükdə cəmiyyətin maraqlarını əsas götürürdü. Ustada xas xüsusiyyətlər ölkədə obyektiv, cəsarətli, duyumlu-düşüncəli jurnalistlərin bütöv bir nəslinin formalaşmasına təsirsiz ötüşmədi. Yetirmələri indiyədək halallıq haqqına sədaqətlərini qürur hissi ilə dilə gətirirlər. Tələbəsi olmasam da, özümü həmin sırada sayıram.

Şirməmməd müəllimin prinsipiallığı, sözü düz gözün içinə qədər deməsi təbiidir ki, heç də hamının xoşuna gəlmirdi. Yoldaşlıqla, dostluqla ədalət prinsipini qarışdırmamağı məsləhət görürdü. Biliyinə, mövcud potensialına bələd olanlar deyəcəkləri sözü, təklifi fikir süzgəcindən keçirəndən sonra ustada yetirirdilər. Tələbələrinin həyata, istehsalata hazırlıqlı, cəsarətli qədəm qoymalarında xüsusi maraqlı idi. Çünki bu adamlar dövrün salnaməsini yaradanların sıralarına belə keyfiyyətləri əxz etmədən qətiyyən qatıla bilməzdilər. Həmkarlarım müəllimlərinin dekan işlədiyi 1971-1976-cı illəri Jurnalistika fakültəsinin qızıl dövrü olaraq xarakterizə edirlər. Bu, tələbəli, müəllimli hamı üçün ləzzət edən məsuliyyətin cavabdehliklə, təşəbbüskarlığın həssas münasibətlə vəhdətdə olduğu daha yaradıcı, canlı mühit idi. Sonralar hətta narazılar belə xiffətini çəkdilər. Ən əsası o idi ki, universitetdə Jurnalistika fakültəsinin timsalında vətəndaş cəmiyyəti üçün layiqli, fəal həyat mövqeyinə malik kadrlar hazırlayan model formalaşdırılmışdı.

Tanınmış jurnalistlərdən biri o illəri xatırlayarkən diqqəti özünün diplom müdafiəsinə çəkir: "Günlərin birində "1905-1911-ci illərin Azərbaycan mətbuatı" mövzusunda işimi tanışlıq üçün diplom rəhbərim Şirməmməd müəllimə təqdim etdim. Görəndə ki, Mirzə Ələkbər Sabirin əsərlərində olmayan bir şeirini tapmışam, çox sevindi. "Bax, bu əsl tələbə tədqiqatıdır, dedi. İnşallah "Hophopnamə"nin yeni nəşrinə daxil edilməsinə çalışarıq". İstifadə olunan ədəbiyyatın təhlilinə nəzər salanda qaşlarını çatıb təəccüblə mənə baxdı. Şirin ləhcəsi ilə soruşdu: "Balası, 3 müəllimini birdən tənqid edibsən, sözünün arxasında dayana biləcəksənmi". Tələbəsinin "buradan azı 3 qiymətinin iyi gəlir" sözündən məmnun qalan dekan: "Onda getdik döyüşə" dedi.

Müdafiə 1 saatdan çox çəkdi. Sonda tələbəni içəri dəvət edərək belə mənalı müzakirələrə görə təşəkkürlərini bildirdilər, diplom işini əla qiymətləndirdilər. Bəli, bu həmin beş ilə xas auradan, mənzərələrdən yalnız biridir".

1990-cı ildən sonra Jurnalistika fakültəsində də yarpaq tökdü dövrü başladı. Şirməmməd müəllim üçün uzun illər birgə çalışdığı insanların dünyalarını dəyişmələri olduqca ağır itki idi. Hər birinə xoş münasibət bəsləyirdi. Xüsusilə on illər boyu çiyin-çiyinə işlədiyi, "Bakı-Baku" qəzetlərinin baş redaktoru professor Nəsir İmanquliyevin itkisindən uzun müddət özünə gələ bilmədi. Bəlkə də buna görə idi ki, təsəllisini arxivlərdə tapırdı, dost itkisini evdə yazı masası arxasında keçirdiyi yuxusuz gecələrdə konpensasiya etməyə çalışırdı.

Bu rejim onun demək olar gündəlik həyat tərzi idi. O, rahat düşünür, yazıb-yaradırdı. Həyat yoldaşı, məqalələrinin, əsərlərinin ilkin oxucusu, korrektoru, redaktoru Ülkər xanım isə bezmədən, giley-güzarsız yanını kəsdirirdi. Bir dəfə nəciblik, dözüm, iradə sahibi kimi formalaşmış anamıza sual verdim: "Çətin deyilmi?" (Ağsaqqalımız tələbəsi olan xanıma auditoriyada vurulmuş, sözün əsl mənasında doşab almışdı, bal çıxmışdı. Ş.Hüseynovun həmkarlarından şux, səliqəli geyimi ilə seçilməsində, nikbinliyində bu amilin əvəzsiz rolu var idi). Gülümsündü: "Bir adamın ki, qayəsi xalqa, dövlətə xidmətdir, indiki və gələcək nəsillərə parlaq irs yadigar qoymaqdır, onun cinahında dayanmaq insana yorğunluq gətirməz" dedi.

Şirməmməd müəllim gülümsəyərək bildirirdi ki, "görüləsi mühüm işlərin həcmi o qədər böyükdür, bir ömür çərçivəsinə sığmaz. Onsuz da yatmağa kifayət qədər vaxtımız olacaq. Yazmaq-yaratmaq üçün öhdəmizdə az müddət qalır". Həmin sözlər vasitəsilə müdrik insanın 70-dən sonra işə, arxivlərə, elmi-tədqiqat müəssisələrinə, görüşlərə, müsahibələr verməyə gedərkən yalnız taksidən istifadə etməsinin fəlsəfəsinə vardım.

Professor ilk baxışda zəhmli, çox ciddi adam təsiri bağışlayırdı. Amma tezliklə duyurdun ki, bu görüntünün arxasında nəcib, xeyirxah insan dayanır. Bizim qarşılıqlı əlaqələrimiz, diskussiyalarımız əsasən 2005-ci ilin iyun ayından daha da intensivləşdi. Milli mətbuatımızın 130 illik yubileyinə hazırlaşırdıq. Mediada sanballı xidmətləri olan jurnalistlərimizin geniş miqyasda mükafatlandırılması üçün Mətbuat Şurasına da öz namizədlərini irəli sürmə səlahiyyəti verilmişdi. Zənglərə Şirməmməd müəllimdən başladım. Vaxt azlığına görə gecə saat 11-də evinə zəng vurdum. Dəstəyi Ülkər xanım götürdü. Səs tonundan həyəcanlandığımı hiss edən xanım səmimiyyətlə: "Narahat olma, Əflatun müəllim, - dedi, - oyaqdır". Xəbəri dinləyib sakitcə: "Məsləhət prezidentimizindir", - dedi. Dilinə xahiş, minnət gətirmədi. Belə hallar xarakterindən çox-çox uzaq idi. Maraqlanıb mükafatlar kolleksiyasına nəzər saldım. Güman edirdim ki, orden-medalları pencəyinə sığmayacaq. Təsəvvürümdə yanılmışdım. Cəmi bir dövlət mükafatı var idi. 1988-ci ildə Əməkdar jurnalist adına layiq görülmüşdü. Vəssalam!

Digərləri ötən əsrin 60-70-ci illərinin bəzəyi "Qızıl qələm", Zərdabi, Y.Məmmədəliyev, M.Rəsulzadə adına mükafatlar idi.

Müəllimimiz dövlət başçısının sərəncamı ilə Prezident təqaüdünə layiq görüldü. Bir dəfə təqaüdünü hara xərclədiyi ilə maraqlandım. Məhəmməd Əmin Rəsulzadənin 1992-ci ildən bəri tərtib etdiyi əsərlərinin 5 cildliyini göstərdi. Vəsaitsizliyə görə çeşidlənmiş halda illər boyu kitab rəfində yatıb qalmışdı. Sponsor axtarışını şəxsiyyətinə sığışdırmayan professor bundan sonra kitabın çapına təqaüdü hesabına başladı. 2018-ci ildə işi yekunlaşdıranda rahat nəfəs aldı. Fəxr etdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə, ulu Məhəmməd Əminin xatirəsinə ərməğanı var. Maraqlısı bu idi ki, Ş.Hüseynov hər dəfə söhbətlərində Tanrıdan işləri yekunlaşdırmaq üçün möhlət istədiyini rica edirdi. Bu arzusuna da qovuşanda: "İndi rahat nəfəs ala bilərəm" təşəkkürünü dilə gətirməkdən zövq alırdı.

"Şərəf" ordenli professor elm adamı idi. Lakin daha çox filosof təsiri bağışlayırdı. Türkdilli ölkələrin jurnalist təşkilatlarının Bakıda keçirilən qurultayında rus dilində məruzəsi ilə hamını heyrətə gətirmişdi. Biz onun 100 yaşına çatmasını istəyirdik. "Allahın işinə qarışmayın" deyirdi.

Müraciətlərimdə mətbuatımızın patriarxını "Ali Ruh" adlandırırdım. Belə yanaşma ulu H.Zərdabinin dəfn mərasimində Əhməd bəy Ağaoglu tərəfindən böyük mütəfəkkirin ünvanına səslənmişdi. O da eyni tərzdə mənə müraciət edirdi. İndi qulaqlarım yenə soraqdadır...

***Əflatun AMAŞOV,***
***Azərbaycan Mətbuat Şurasının sədri,***
***Əməkdar jurnalist***

# Abidələr: tarixin "yaddaş kitabları"

## Qarabağın işğal altında qalan ərazilərində maddi mədəniyyət nümunələri də erməni vandalizminin qurbanlarına çevrilib

Dövrün daşlaşmış səhifələri kimi, abidələr, qalalar zamanın "danışan tarix"inə çevrilir, minilliklərdən soraq verir. Bu mənada hər bir xalqın varlığını sübut edən tarixi yadigarlar içərisində abidələrin özünəməxsus yeri və rolu danılmazdır.

Çünki onların meydana gəlməsinə qədər əsrlər, min illər keçib. Zaman-zaman dəyişilən ictimai-iqtisadi formasiyalar, mədəniyyətlərin qovuşması, yaxud ayrılması bu tarixi şahidlərin sinəsinə həkk olunub. Ona görə də abidələrin mühafizəsi labüddür.

Xalqımızın mədəni irsi bəşər mədəniyyətinin ayrılmaz bir parçasıdır. Məhz elə buna görə də çoxəsrlik tarixi keçmişimizdən yadigar qalan mədəniyyət abidələrinin mühafizəsi beynəlxalq əhəmiyyət kəsb edir. Onların bəşəri dəyərini nəzərə alan UNESCO-nun Dünya İrs Komitəsi tərəfindən nəşr olunan "Dünya İrs" jurnalı İçərişəhər, Şirvanşahlar sarayı və Qız qalasının qurumun təhlükədə olan irs siyahısından çıxarılması barədə məqalə dərc edib. Burada abidələrin mühafizəsi sahəsində Azərbaycanın əldə etdiyi uğurlar da yüksək qiymətləndirilib.

Tarixi tədqiqatlar təsdiqləyib ki, Azərbaycan bəşər sivilizasiyasının ilk meydana gəlmiş ərazisində yerləşir. Ulu babalarımız çox dəyərli maddi mədəniyyət nümunələri yaratmışlar ki, onlar respublikamızın ərazilərində yetərincə qeydə alınmışdır. Bu abidələr hər bir xalqın və ya millətin tarixi, mədəniyyəti, bir sözlə, keçdiyi təkamül və inkişaf yolunun bariz sübutudur.

Maddi mədəniyyət abidələri ilə yanaşı, dini xarakterli məbədlər də bu yerlərin tarixinin qədim və zənginliyini özündə əks etdirir. Qobustan qayalıqları ilə Azıx mağarasında ilk insanın əl işlərinin dövrümüzədək gəlib çıxmasında məhz təbii coğrafi amil əsas rol oynayıb. Qobustanda aşkar edilmiş mağaralar və digər sığınacaqlar, memarlıq abidələri də sübut edir ki, bu yerlər sivilizasiyaların qovuşaraq yaratdığı mədəniyyətin beşiyi, yəni ilk insan məskənlərindəndir.

Manna və Atropatena dövlətlərinin mədəniyyət abidələri, müdafiə tikililərinin - qalaların, yolüstü karvansaraların, Urmiya gölü ətrafındakı sərdabələrin tədqiqi göstərir ki, hələ altıncı yüzillikdə bu yerlərdə yaşayış mədəniyyəti o həddə çatıb ki, hətta eyvanlı evlər də tikilib. Yaxud həmin dövrün dini abidələrindən olan od məbədləri - bugünümüzədək gəlib çatan belə sərvətlər (Atəşgah) Azərbaycanın milli memarlığının inkişafında mühüm rol oynayıb. Onu da qeyd etməliyik ki, atəşpərəstliyin yayılması ilə bağlı yaradılan ibadətgahlar islamdan əvvəlki dövrün məbədləri sayılır. Qafqaz Albaniyasının yadigarları da bir daha təsdiqləyir ki, şəhərsalma mədəniyyətinin təşəkkül tapmasının tarixi çox qədimlərə gedib çıxır. Qəbələnin möhkəm qala divarları, saxsı borularda şəhərə su çəkilməsi, dəmirqapı keçidindəki müdafiə sistemi, Çıraqqala, Ləkit və Mingəçevirdəki məbədlər kompleksi, yaxud Sasanilər dövrü tarixini özündə qoruyub saxlayan müdafiə xarakterli abidələr də bunları söyləməyə əsas verir.

Qafqazda islam dininin yayılması ilə memarlığın inkişafında da müəyyən dəyişikliklər zərurətə çevrilib. Yeni tipli memarlıq abidələri - məscidlər, mədrəsələr, türbə və digər məbədlər tikilib. Ərdəbil, Marağa, Urmiya, Şamaxı, eləcə də Bərdə, Şabran və digər yaşayış yerləri o dövr üçün Azərbaycanın ən inkişaf etmiş mədəniyyət mərkəzlərindən sayılıb. O da xüsusi olaraq qeyd edilməlidir ki, islamdan əvvəlki dövrlərdə inşa edilən alban tikililəri milli memarlığın inkişafında mühüm əhəmiyyət daşıyıb. Həmin dövrün abidələrindən söz açarkən Zaqataladakı Paşan və Muxax, Şəkidəki Böyük Gəldək, Govurqala, Qəbələnin Böyük Əmirli, Dağlıq Qarabağın Xocavənd rayonunun Qarakənd, bir sözlə, respublikamızın bütün bölgələrindəki tarixi, dini, maddi mədəniyyət nümunələrini unutmaq olmaz.

Təəssüf ki, tarixən bu kimi mədəniyyət nümunələri milli, məhəlli münaqişələrin qurbanlarına çevrilməkdən də sığortalanmayıblar. Hər dövrün özü ilə gətirdiyi "səmum yeli" onların bir çoxunun daşını daş üstə qoymayıb. Ötən əsrin əvvəllərində və sonlarında ermənilərin məkrli, çirkin siyasəti nəticəsində yer üzündən silinən abidə və məbədlərimiz də az olmayıb. Erməni işğalçılarının talan etdiyi abidələr Azərbaycan xalqının tarixi və mədəniyyətinin zənginliyini və qədimliyini özündə əks etdirdiyi üçün qəddarcasına, vəhşicəsinə yer üzündən silinib, yaxud erməniləşdirilib. Təsadüfi deyil ki, dağıdılan, məhv edilən maddi mədəniyyət nümunələrinin arasında təkcə Şuşa, Laçın və Qubadlının rəsm qalereyaları deyil, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Kəlbəcərin nəinki ərazilərindəki, hətta muzeylərində qorunub saxlanan sərvətlərimiz talan edilərək Ermənistana daşınıb.

Bəşər mədəniyyətinin tərkib hissəsi olan maddi-mənəvi irsin qorunması beynəlxalq əhəmiyyət kəsb etdiyindən, onların mühafizəsi bu gün dövlətin diqqət mərkəzindədir. Abidələrin beynəlxalq miqyasda mühafizəsindən danışıldığı bir vaxtda erməni vandalları Azərbaycanın maddi mədəniyyət nümunələrini yer üzündən silməklə məşğuldur. Dəfələrlə yüksək tribunalardan səsləndirilsə də, ermənilər heç bir beynəlxalq qanunlara əməl etmirlər. Şuşa tarixən abidələr şəhəri kimi tanınıb. Lakin, çox təəssüf ki, 1992-ci il may ayının 8-dən sonra bu qədim, ulu musiqi beşiyində xalqımıza məxsus maddi mədəniyyət nümunələri dağıdılıb. Orada "güllələnmiş heykəllərin fəryadı" isə beynəlxalq birlikdə, sadəcə, eşidilmədi.

Bütün münaqişə və müharibələr təkcə məhvedici dağıntılar, ərazi ilhaqları demək deyildir. Burada söhbət bəşəriyyətin ən ülvi varlığı olan insan övladının, sadəcə, məhvindən deyil, onların düçar olduqları qəddarlıq və dəhşətlərdən gedir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin elan olunmamış müharibəyə keçməsi nəticəsində 20 min nəfər azərbaycanlı həlak olmuş, 4866 nəfər itkin düşmüş, 100 min nəfər yaralanmış, 50 min nəfər müxtəlif dərəcəli xəsarət alaraq əlil və şikəst olmuşdur. Bu təcavüz eyni zamanda Azərbaycan üçün 17 min kvadratkilometr ərazinin (əsasən məhsuldar və təbii sərvətlərlə zəngin) torpaqların işğalı, 900 yaşayış məntəqəsinin, 130939 evin, 2389 sənaye və kənd təsərrüfatı obyektinin, 1025 təhsil, 798 səhiyyə ocağının, 1510 mədəniyyət müəssisəsinin, 5198 km avtomobil yollarının, 348 körpünün, 7568 km su və 76940 km elektrik xətlərinin dağılması, bütünlüklə məhv edilməsi deməkdir.

Ermənilərin təkcə ötən əsrin doxsanıncı illərinin əvvəllərində təcavüzü nəticəsində Dağlıq Qarabağ və ona bitişik ərazilərdə 13 dünya (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli muzey, 23 bağ, park, monumental və xatirə abidələri, 6 rəsm qalereyası, tarixi əhəmiyyətli 9 sarayı qarət edilərək yandırılmışdır. Bunlardan başqa, 15 dekorativ sənət nümunəsi - tarixi və mədəniyyət nümunələrinin yerlə yeksan edilməsi, nadir əhəmiyyətə malik 40 min muzey sərvəti və eksponatın talan olunması, 44 məbəd və 18 məscidin təhqir edilməsi faktları artıq bir sıra beynəlxalq təşkilatların rəsmi sənədlərində də əksini tapıb. Dağıdılan və yandırılan 927 kitabxanada 4 milyon 600 min nüsxə kitab və nadir incilərdən sayılan əlyazmaların külü göylərə sovrulmuşdur.

Əlbəttə, bura ayrı-ayrı rayonlarda məhv edilmiş abidə və məbədləri də əlavə etsək, aydın olar ki, ermənilərin faşizm xislətli çirkin siyasətinin nəticəsidir ki, keçmiş SSRİ-də yeganə sayılan Ağdamın Çörək, dünya şöhrətli, nadir eksponatlı Kəlbəcər, Xocalı, Şuşa, Laçın, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarının tarix-diyarşünaslıq muzeyləri darmadağın edilib.

Dağlıq Qarabağ ərazisində və ətraf rayonlarda Azərbaycanın milli-mədəniyyət ocaqlarına erməni təcavüzkarları tərəfindən vurulan ziyanı dəqiq hesablamaq mümkün deyildir, çünki zaman dəyişmiş (keçmiş sovetlər dönəmindəki dəyərlər artıq öz əhəmiyyətini itirdiyi üçün mal-mülkün də qiymətləri maya dəyərinə uyğunlaşdırılmışdır), qiymətlər yenidən formalaşmışdır. Eyni zamanda talan və məhv edilmiş sərvətlər nəinki Azərbaycanın, həm də dünya sivilizasiyasının misilsiz mədəniyyət nümunələri hesab olunmuşdur. Əhaliyə vurulmuş mənəvi-psixoloji zərbə ilə bərabər, ilkin və sonadək müəyyənləşdirilməmiş məlumatlara əsasən, Azərbaycan iqtisadiyyatına 60 milyard ABŞ dollarından çox ziyan dəymişdir.

Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycanın tarixi və mədəniyyət, eyni zamanda, dini abidələrinin barbarcasına dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasına, eləcə də "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına zidd olsa da, nədənsə, beynəlxalq birlik belə təcavüzün qarşısının alınmasında qəti mövqe göstərmir, bu vandalizmə ikili standartlarla yanaşır.

1983-cü ildə UNESCO-nun Beynəlxalq Abidələrin Mühafizəsi Assambleyasının təsis edilməsində də məqsəd diqqəti maddi mədəniyyət nümunələrinin və tarixi ərazilərin qorunmasına yönəltmək olub. Sivilizasiyalı bəşəriyyətin tarixi keçmişinin öyrənilməsində abidələr xüsusi əhəmiyyət daşıyırlar. Lakin minilliklərin yadigarları olan bu sərvətlərin hamısı təəssüf ki, bugünümüzə qədər gəlib çıxmayıb. Zaman-zaman ərazilər yadellilər tərəfindən işğal edilərkən məhvə məhkum olunan maddi mədəniyyət nümunələri içərisində dini xarakterliləri də az deyil.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Tural GƏNCƏLİYEV: "Ermənistanın ayrı-seçkilik siyasəti aparması bu ölkənin illərdir həyata keçirdiyi ideologiyanın təzahürüdür"

"Son günlər Ermənistan hakimiyyətinin nümayəndələri Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ bölgəsində azərbaycanlıların guya heç vaxt yaşamadığı və bölgədə iki icmanın mövcud olmadığı haqqında əsası olmayan fikirlər səsləndirirlər. Azərbaycanın torpaqlarını işğal edən, Xocalı soyqırımını törədən, işğal altındakı ərazilərdə xalqımıza məxsus mədəni, dini, tarixi abidələri məhv edən Ermənistanın ayrı-seçkilik (aparteid) siyasəti aparması bu ölkənin illərdir həyata keçirdiyi ideologiyanın təzahürüdür".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyevin şərhində yer alıb.

"Qeyd etməliyəm ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin cari il ərzində regiona iki səfəri reallaşıb və Dağlıq Qarabağın azərbaycanlı icması ilə həmsədrlər arasında görüşlər keçirilib. Keçirilən görüşlərdən sonra həmsədrlərin bəyanatlarında Dağlıq Qarabağın azərbaycanlı icması erməni icması ilə bərabərhüquqlu maraqlı tərəf kimi bir daha qeyd edilib. Bu isə yeni fikir deyil və 1992-ci ildən mövcud olan faktın bir daha Ermənistana xatırladılmasıdır. Rusiyanın Xarici İşlər naziri Serqey Lavrov Azərbaycana son səfəri zamanı icmalararası dialoqu dəstəklədiyini qeyd edib.

Məhz bu gedişatlardan sonra Ermənistan tərəfinin "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması"nın mövqeyini həzm edə bilmədiyi özünü büruzə verməkdədir. Ermənistan Dağlıq Qarabağın azərbaycanlı icmasının mövcudluğunu belə inkar edir.

Birinci, artıq yuxarıda istinad edildiyi kimi, 1992-ci il 24 mart tarixində ATƏT-in Helsinki Nazirlər Şurasının sənədində əks olunan Dağlıq Qarabağın seçkili və digər nümayəndələri, məhz Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hər iki, yəni erməni və azərbaycanlı icmalarını nəzərdə tutur və onlar maraqlı tərəflər qismində qeyd olunur. Bu sənəddə Dağlıq Qarabağa ayrıca tərəf kimi istinad edilmir.

İkinci, 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti Ermənistan SSR və Dağlıq Qarabağın birləşdirilməsi haqqında qanunsuz qərar qəbul etdikdən sonra 1990-cı il 10 yanvar tarixində SSRİ Ali Sovetinin Rəyasət Heyəti "Dağlıq Qarabağ barəsində Ermənistan SSR Ali Sovetinin "qərarlarının" SSRİ Konstitusiyasına uyğun olmamasını qeyd edərək, Ermənistanın Dağlıq Qarabağa yönəlik qanunsuz ərazi iddialarına son qoyur.

Üçüncü, BMT, digər beynəlxalq təşkilatlar, dünya ictimaiyyəti Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır. Ermənistan tərəfinə ATƏT-in Minsk qrupunun həmsədrlərinin bəyanatlarını və müvafiq sənədləri öyrənməyi tövsiyə edirəm.

Ermənistan hakimiyyəti əgər Azərbaycana qarşı işğal siyasətinə son qoyarsa, Azərbaycanın Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərindən qovulmuş yüzminlərlə azərbaycanlının mövcudluğunu inkar etməzsə, iki icmanın bərabərhüquqlu icma olaraq Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində sülh şəraitində birgə yaşamasına mane olmazsa, münaqişənin həlli mümkün ola bilər", - deyə Tural Gəncəliyev vurğulayıb.

# Müdafiə Nazirliyi: "Bölmələr qış mövsümünə hazırdır"

Azərbaycan Ordusunun cəbhəboyu zonada yerləşən bölmələrinin qış mövsümünə hazırlıqla əlaqədar təchizat və təminat işləri başa çatdırılıb.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yüksək dağ massivlərində döyüş növbətçiliyi yerinə yetirən hərbi qulluqçuların ərzaq təminatı, isti geyim və yanacaq ehtiyatı, silah və sursat təchizatı normaya uyğun şəkildə döyüş mövqelərinə çatdırılıb. İşğal olunmuş Azərbaycan torpaqlarındakı Ermənistan ordusunun bölmələri ilə üzbəüz mövqelərdə döyüş növbətçiliyi aparan Azərbaycan Ordusunun bölmələri qış mövsümünə tam hazırdır. Dəniz səviyyəsindən 1500-2000 metr hündürlükdə yerləşən mövqelərdə xidmət aparan şəxsi heyətin təchizat və təminatı qış ayları ərzində heç bir problem və çətinlik çəkmədən xidmət aparmağa imkan verir.

Qış istismar rejiminə keçidlə əlaqədar soyuq iqlim şəraitində, dağlıq-düzənlik ərazidə, gecə və gündüz rejimində fasiləsiz xidmət aparmaq üçün hərbi hissələrin döyüş qabiliyyəti artırılır, eləcə də döyüşə hazırlığın yüksək səviyyədə saxlanılması üçün bütün zəruri tədbirlər həyata keçirilir.

Silah və texnikanın qış dövründə fasiləsiz və dayanıqlı istismarını təmin etmək məqsədilə bütün hərbi hissələr mərkəzləşdirilmiş qaydada yanacaq-sürtkü materialları, digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təmin edilib. Döyüş texnikalarının və hərbi nəqliyyat vasitələrinin yanacaq-sürtkü materialları dəyişdirilərək ən çətin və soyuq iqlim şəraitində istismar olunması üçün döyüşə hazır vəziyyətə gətirilib.

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatına inzibati təsnifatın 221310 - "İdarənin xərcləri" xərc maddəsində nəzərdə tutulan vəsait hesabına təsərrüfat mallarının satın alınması məqsədilə "Azərbaycan" qəzetində 20 noyabr 2019-cu il və etender.gov.az saytında 19 noyabr 2019-cu il tarixdə elan etdiyi kotirovka sorğusu "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 17.1, 17.2, 20.1 və 20.2 maddəsinə əsasən baş tutmamış hesab edilir və onun davamından imtina edilir.

*Tender komissiyası*

# Beynəlxalq aləm

## ABŞ Əfqanıstandan 4 min hərbçisini çıxarmağı planlaşdırır



Prezident Donald Tramp administrasiyası ABŞ-la "Taliban" hərəkatı arasında danışıqların bərpası fonunda Əfqanıstandakı Amerika hərbi kontingentini ixtisar etmək niyyətindədir. Bu barədə CNN telekanalı xəbər verir.

Məlumata görə, ABŞ Prezidenti Əfqanıstandan 4 min amerikalı hərbçini çıxarmağı planlaşdırır. Hazırda Əfqanıstanda Amerika kontingentinin sayı təxminən 13 min nəfərdir. Bundan əvvəl də Tramp Əfaqnıstandakı amerikalı hərbçilərin sayını azaltmaq niyyətində olduğunu bildirmiş və bu məsələ taliblərlə danışıqların bərpası fonunda yenidən aktuallaşmışdır.

Agentliyin xəbərinə görə, ABŞ-ın 2001-ci ildən bəri Əfqanıstandakı müharibəyə xərclədiyi vəsait 133 milyard dollara çatmışdır. Əfqanıstanda münaqişə illəri ərzində 2300 amerikalı hərbi qulluqçu, 58 mindən çox əfqan hərbçisi və 38 min dinc sakin həlak olmuşdur. Bundan əlavə, 42 min ekstremist məhv edilmişdir.

## Vaşinqton KXDR-in nüvə danışıqları üzrə şərtlərini qəbul etməyəcək



ABŞ KXDR-in nüvə proqramı üzrə danışıqların bərpasının "son müddəti" ilə bağlı Pxenyanın şərtlərini qəbul etməyəcək. Bu barədə ABŞ-ın Şimali Koreya üzrə xüsusi nümayəndəsi Stiven Biquna istinadən "Yonhap" agentliyi xəbər verir.

Biqunun dediyinə görə, Vaşinqton Pxenyanın irimiqyaslı təxribatlar törətmək ehtimalını istisna etmir. O xəbərdarlıq etmişdir ki, "Pxenyanın təxribatçı hərəkətləri Koreya yarımadasında dayanıqlı sülhə nail olmaq istiqamətində səylərə ziyan vuracaq". ABŞ nümayəndəsi KXDR hökumətini ilkin şərtlər irəli sürmədən danışıqlar masası arxasına oturmağa çağırmışdır.

Bu arada KXDR Soxe poliqonunda daha bir uğurlu sınaq keçirdiyini elan etmişdir. Ölkənin Mərkəzi Teleqraf Agentliyi xəbər verir ki, bu sınaq "daha çox əhəmiyyətli test"dir. Sınağın nəticələrindən strateji qüvvələrin gücləndirilməsi üçün istifadə olunacaq.

Xatırladaq ki, ötən həftənin axırlarında həmin poliqonda raket mühərriki sınaqdan çıxarılmışdır.

## İranda havanın çirklənməsi yüksək səviyyəyə çatıb

Havanın çirklənməsinin yüksək səviyyəsi fonunda son bir gün ərzində İran xəstəxanalarına 1541 nəfər müraciət etmişdir. Bu barədə Fövqəladə Hallarla Mübarizə İdarəsinin nümayəndəsi Müctəba Xalidi məlumat vermişdir. Onun dediyinə görə, müraciətlər Tehran, İsfahan və Elburzda qeydə alınmışdır.

Paytaxt xəstəxanalarına 1051 müraciət daxil olmuşdur. 570 iranlı tənəffüs, 971 sakin ürək problemlərindən şikayət etmişdir. İran hökuməti yüksək çirklilik səviyyəsi olan regionların sakinlərini ehtiyac olmadığı halda küçəyə çıxmamağa və tibbi maskadan istifadə etməyə çağırmışdır.

Təbrizdə havanın çirklənmə səviyyəsi bir kubmetrə 120 mikroqram təşkil etmişdir. Səhhətində problem olan sakinlərə ictimai nəqliyyatdan istifadə etməmək tövsiyə olunmuşdur. Əraq şəhərində bütün təhsil müəssisələrində dərslər ləğv edilmişdir. İsfahanda havanın çirklənmə səviyyəsi bir kubmetrə 145 mikroqram təşkil etmişdir.

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 12 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin elan etdiyi tenderdə zərflərin açılışı malgöndərənlərin müraciətlərinə əsasən 25 dekabr 2019-cu il saat 11:00 tarixdən 08.01.2020-ci il saat 17:00 tarixinə dəyişdirilmişdir.

*Tender komissiyası*

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 15.11.2019-cu il tarixdə "Bakı Metropoliteni" QSC-nin qatarlarının təmir proseslərinin qeydiyyatının avtomatlaşdırılması layihəsinin hazırlanması xidmətinin kotirovka sorğusu üsulu ilə satın alınmasına dair müsabiqə baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

*Tender komissiyası*

## "Bakı Metropoliteni" QSC 5x2 ölçülü LED monitorların və onlayn statistikanı müəyyənləşdirən proqram təminatının satın alınması üzrə *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/-dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**LOT-1 "Bakı Metropoliteni" QSC üçün 5x2 ölçülü LED Monitorun və onlayn statistikanı müəyyənləşdirən proqram təminatının satın alınması**

**İştirak haqqı - 200 manat**
**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN):**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **10 yanvar 2020-ci il saat 16:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **21 yanvar 2020-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **22 yanvar 2020-ci il saat 16:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*

# Temperatur 14 dərəcəyə yüksələcək




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər bəzi yerlərdə duman, çiskin olacaq. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz mülayimləşəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 5-8°, gündüz 10-14° isti, Bakıda gecə 5-7°, gündüz 12-14° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 772 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər ayrı-ayrı yerlərdə duman, bəzi dağlıq rayonlarda isə yağıntılı olacağı ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 10-14° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 6-11° isti olacağı ehtimal edilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, Abşeron yarımadasında mülayim xəzri küləyinin üstünlüyü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Naxçıvan Muxtar Respublikasının bəzi yerlərində havanın yağıntılı olacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 7-12° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində havanın yağıntılı olacağı, qar yağacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 6-11° isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman, çiskin olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 9-14° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində yağış, yüksək dağlıq ərazilərdə qar yağacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 8-13° isti, dağlarda gecə 3-7° şaxta, gündüz 5-10° isti olacağı ehtimal edilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 10-14° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarının bəzi yerlərində yağış yağacağı, gündüz əsasən yağmursuz keçəcəyi ehtimal edilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-8°, gündüz 10-14° isti, dağlarda gecə 3-6°, gündüz 8-11° isti olacağı gözlənilir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin Mədəniyyət komitəsinin sədri Rafael Hüseynova qardaşı
**RÖVŞƏN MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Hadi Rəcəbli, Cavanşir Paşazadə və Hüseynbala Mirələmov jurnalist Elşad Paşasoya anası
**HUMAY XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Rafael Hüseynova qardaşı
**RÖVŞƏN MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin Mədəniyyət komitəsinin sədri Rafael Hüseynova qardaşı
**RÖVŞƏN MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Penitensiar xidmətin rəis müavini Orxan Qasımova əzizi
**CAVANŞİR TAĞIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi xidmətin rəis müavini Orxan Qasımova əzizi
**CAVANŞİR MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8896
Sifariş 4132
Qiyməti 40 qəpik